QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 010 (5730) **17 yanvar** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İlham Əliyev: "Qeyri-neft sektorunun inkişafı bundan sonra da bizim üçün prioritet olacaq"



*Prezident İlham Əliyev Sumqayıtda "SOCAR karbamid" zavodunun açılışında iştirak edib*

Səh 2

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransanın sabiq Prezidenti Nikola Sarkozi ilə görüşüb



4

XİN Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Paris görüşünə dair açıqlama yayıb



4

Müstəqilliyə gedən yolda xalqımızın şərəf və qəhrəmanlıq salnaməsi



8

Sergey Lavrov: 2018-ci il Rusiya-Azərbaycan münasibətləri üçün çox müsbət il olub



6

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində ötən ilin yekunları müzakirə edilib



6

Ermənistan qaz tələsində



9

9

Ötən il pensiya, müavinət və təqaüdlərdə artım tempi davam edib



7

Əli Kərimli tərəfdarlarını bada verəcək



16

Azərbaycan Qran-Prisinin sessiyalarının vaxtı açıqlanıb



# İlham Əliyev: “Qeyri-neft sektorunun inkişafı bundan sonra da bizim üçün prioritet olacaq”

## *Prezident İlham Əliyev Sumqayıtda “SOCAR karbamid” zavodunun açılışında iştirak edib*

***Yanvarın 16-da Sumqayıt Kimya Sənaye Parkının ərazisində inşa olunmuş “SOCAR karbamid” zavodu istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. SOCAR-ın prezidenti Rövnəq Abdullayev və zavodun direktoru Xəyal Cəfərov görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat veriblər.***



*“Bu gün Azərbaycan o ölkədir ki, bu ölkəyə həm xarici sərmayə qoyulur, həm banklar böyük məmnuniyyətlə vəsait ayırır. Çünki bilirlər ki, onların vəsaiti batmayacaq”*

Məlumat verilib ki, “SOCAR karbamid” zavodunun istehsala başlaması azot gübrəsi idxalına ehtiyacı aradan qaldıracaq, bununla da ölkənin xarici valyuta xərcləri azalacaq. Zavod ildə 435 milyon kubmetr təbii qaz həcmindən xammal kimi istifadə etməklə 650-660 min ton karbamid məhsulu istehsal etmək gücündədir. İstehsal həcminin 70 faizi ixrac üçün nəzərdə tutulur ki, bu da ölkəyə hər il 160 milyon dollara qədər əlavə gəlirin daxil olmasına imkan verəcək. Bu zavodun işə düşməsi Azərbaycanda kənd təsərrüfatının inkişafında mühüm rol oynayacaq. Belə ki, karbamid gübrəsi ən yüksək azot tutumuna malikdir və buna görə də ən keyfiyyətli azot gübrəsi hesab olunur. Suda tez həllolma qabiliyyətinə görə seçilən bu gübrə növü ammonyak və karbon dioksidin sintezi nəticəsində əldə edilir. Karbamidə tələbat onun aşağı maya dəyəri, qənaətcil daşınması, rahat tətbiqi və kənd təsərrüfatında yüksək məhsuldarlığı ilə əlaqədardır. Bu məhsuldan digər kimyəvi maddələrin istehsalında və əczaçılıqda da geniş istifadə olunur.





Prezident İlham Əliyev zavodu işə salıb. Sonra Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkının əsas rezidentlərindən olan “SOCAR karbamid” zavodunun fəaliyyətindən bəhs edən filmə baxıb. Daha sonra dövlətimizin başçısı müəssisənin kollektivi ilə görüşüb. Azərbaycan Prezidenti görüşdə çıxış edib. Prezident İlham Əliyev öz çıxışında bildirib ki, bu zavodun yaradılması çox əlamətdar, çox önəmli hadisədir. Bu, bir daha onu göstərir ki, Azərbaycan xarici şirkətlər üçün çox cəlbedici ölkədir:

“Bu zavod Azərbaycanda qeyri-neft sənayesi sahəsində həyata keçirilən ən böyük layihədir. Mənə verilən məlumata görə, zavodda ildə 650 min ton karbamid istehsal olunacaq. Onun böyük əksəriyyəti ixrac ediləcək. Eyni zamanda, daxili tələbat da ödəniləcək. Çünki biz bu günə qədər gübrələri xaricdən alırıq və bu məqsədlər üçün böyük həcmdə valyuta xərcləyirik. Azərbaycan dövlətinin fermerlərə verilən gübrələrin 70 faizinin vəsaitini təmin etdiyini nəzərə alsaq, təsəvvür etmək çətin deyil ki, bu, büdcəmiz üçün kifayət qədər maliyyə yüküdür. Amma indi biz özümüz fermerlərimizi ən keyfiyyətli gübrə ilə təmin edəcəyik.

Zavodun özəlliyi həm də ondan ibarətdir ki, burada xammal kimi istifadə olunan məhsul təbii qazdır, yerli məhsuldur. Yəni, karbamidin tərkibində xarici komponent yoxdur. Burada ildə 450 milyon kubmetr təbii qazdan istifadə olunacaq. Əgər biz təbii qazı indi bugünkü qiymətlərlə mövcud xarici bazarlara satsaydıq, bundan təqribən 80 milyon dollar vəsait əldə edə bilərdik. Ancaq karbamid şəklində istehsal olunacaq məhsulun dəyəri 150-160 milyon dollar olacaqdır. Yəni, biz səmərəliliyi demək olar ki, iki dəfə artırmışıq. Ölkəmiz üçün çox gözəl ixrac məhsulu yaratmışıq.

**Ardı Səh. 3**

# İlham Əliyev: “Qeyri-neft sektorunun inkişafı bundan sonra da bizim üçün prioritet olacaq”

*Prezident İlham Əliyev Sumqayıtda “SOCAR karbamid” zavodunun açılışında iştirak edib*




**Əvvəli-Səh-2**

Kənd təsərrüfatının inkişafı üçün yerli gübrə yaratmışıq və ölkəmizin qeyri-neft sənayesinə böyük töhfə vermişik. Yəni, zavodun fəaliyyətə başlaması, bax, bu əsas məqsədləri güdür. Biz bütün məqsədlərə çata bilmişik.

Mən çox şadam ki, ölkəmizdə qeyri-neft sənayesi sürətlə artır. Keçən il 9,1 faiz artmışdır. Bu, onu göstərir ki, sənayeləşmə prosesi uğurla gedir. Keçən ilin yayında Sumqayıtda “SOCAR Polymer” müəssisəsinin birinci mərhələsi fəaliyyətə başladı. Bu il onun ikinci mərhələsi fəaliyyətə başlayacaq. Burada da ixracyönümlü çox gözəl məhsul istehsal olunacaq. Eyni zamanda, daxildə polipropilen, polietilendən istehsal olunacaq hazır məhsul da satışa buraxılacaq. Biz yenə də idxaldan asılılığı aradan qaldıracağıq. Bu zavodlarda yüzlərlə yeni iş yeri yaradılır. Mənə verilən məlumata görə, karbamid zavodunda 500 iş yeri yaradılacaq və burada işləyəcək insanların mütləq əksəriyyəti yerli vətəndaşlardır, onların əksəriyyəti gənclərdir. Yəni, orada çalışan insanların orta yaş səviyyəsi təqribən 30-35 arasındadır. Bax, görülən bu işlərin nəticələri budur. Ölkəmizin uğurlu inkişafı üçün belə böyük müəssisələrin çox böyük əhəmiyyəti var. Qeyri-neft sektorunun inkişafı bundan sonra da bizim üçün prioritet olacaq. Qeyd etdiyim kimi, qeyri-neft sənayesində 9,1 faiz artım çox böyük göstəricidir.

Əlbəttə, Azərbaycan bu layihələri xarici tərəfdaşlarla həyata keçirərkən bizim beynəlxalq əlaqələrimiz də möhkəmlənir. Bu gün Azərbaycan o ölkədir ki, bu ölkəyə həm xarici sərmayə qoyulur, həm banklar böyük məmnuniyyətlə vəsait ayırır. Çünki bilirlər ki, onların vəsaiti batmayacaq. Bilirlər ki, Azərbaycanın kifayət qədər böyük maliyyə resursları var. Bizim maliyyə resurslarımız, ehtiyatlarımız xarici borcumuzdan 4,5 dəfə çoxdur. Bax, bu gözəl vəziyyət imkan verir ki, biz tərəfdaşları, xarici bankları cəlb edək. Ancaq, eyni zamanda, bizim siyasətimiz ondan ibarətdir ki, xarici dövlət borcumuzu aşağı salaq. Necə ki, keçən il ərzində xarici dövlət borcu 22,8 faizdən 19 faizə düşübdür və bu il daha da düşəcək.”

## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev “Uşaq hüquqları haqqında” və “Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1387-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1384-VQD nömrəli Qanununun tətbiqi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev “Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1336-VQD nömrəli Qanununun tətbiqi barədə Fərman imzalayıb.

# “Azərbaycan-İran ikitərəfli münasibətləri son illər ərzində bütün sahələrdə uğurla inkişaf edir”

*Prezident İlham Əliyev İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Məhəmməd Baqerinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan-İran ikitərəfli münasibətlərinin son illər ərzində bütün sahələrdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyini bildirdi. Siyasi əlaqələrimizin bu gün ən yüksək pilləyə qalxdığını deyən Prezident İlham Əliyev son illər ərzində prezidentlər səviyyəsində 10-dan çox görüşün keçirilməsinin münasibətlərin inkişafında xüsusi rolunu qeyd etdi. Dövlətimizin başçısı digər səviyyədə qarşılıqlı səfərlərin də əlaqələrin genişləndirilməsi baxımından önəmini vurğuladı. Xalqlarımızın əsrlər boyu mehriban qonşuluq şəraitində yaşadığını deyən Prezident İlham Əliyev Azərbaycan-İran dostluq və qardaşlıq münasibətlərinin qarşıdakı illərdə də uğurla inkişaf edəcəyinə əminliyini ifadə etdi.

İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Məhəmməd Baqeri Prezident Həsən Ruhaninin salamlarını dövlətimizin başçısına çatdırdı. Məhəmməd Baqeri bildirdi ki, İranın Ali Rəhbəri ölkələrimiz və xalqlarımız arasında əlaqələrin bundan sonra daha çox güclənməsini zəruri hesab edir. Qonaq qeyd etdi ki, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə edilmiş inkişaf, əmin-amanlıq və sabitlik İran xalqı tərəfindən sevinclə qarşılanır. O, xalqlarımızın əsrlər boyu müştərək tarixə və mədəniyyətə malik olduğunu dedi və əlaqələrimizin bu gün də uğurla inkişaf etdiyini vurğuladı.

Məhəmməd Baqeri bildirdi ki, İran Qarabağ torpaqlarını Azərbaycan torpaqları hesab edir, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və bundan sonra da dəstəkləyəcək, sərhədlərin zor gücü ilə dəyişdirilməsi qəbuledilməzdir, İran bu məsələdə hər zaman Azərbaycanın yanındadır.

Prezident İlham Əliyev bu qardaşlıq mövqeyinə görə onun təşəkkürlərinin İran rəhbərliyinə çatdırılmasını xahiş etdi və Azərbaycanın İran tərəfinin bu ədalətli mövqeyini yüksək qiymətləndirdiyini bildirdi. Dövlətimizin başçısı işğal edilmiş ərazilərdə Azərbaycanın tarixi-dini abidələrinin ermənilər tərəfindən dağıdılması barədə Məhəmməd Baqerini məlumatlandırdı.

Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.



# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransanın sabiq Prezidenti Nikola Sarkozi ilə görüşüb





***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva yanvarın 16-da Fransa Respublikasının sabiq Prezidenti Nikola Sarkozi ilə görüşüb.***

AZƏRTAC xəbər verir ki, görüşdə Nikola Sarkozinin prezidentlik fəaliyyəti dövründə Fransa-Azərbaycan əlaqələrinin uğurlu inkişafında xanım Mehriban Əliyevanın rolu vurğulanıb. Qeyd edilib ki, xanım Mehriban Əliyevanın Azərbaycan-Fransa parlamentlərarası dostluq qrupunun rəhbəri kimi fəaliyyəti və eləcə də Heydər Əliyev Fondu tərəfindən Fransada mühüm humanitar layihələrin həyata keçirilməsi əməkdaşlığımızın daha da möhkəmlənməsi işinə böyük töhfə verib.

Görüşdə, eyni zamanda, bildirilib ki, Nikola Sarkozinin prezidentliyi dövründə Azərbaycan və Fransa dövlət başçılarının ikitərəfli münasibətlərin inkişaf etdirilməsi istiqamətində göstərdikləri fəaliyyət nəticəsində ölkələrimiz arasında əlaqələr bir çox sahələrdə genişlənib.

# Fransanın sabiq Prezidenti Azərbaycan-Fransız Universitetində olub




***Fransa Respublikasının sabiq Prezidenti Nikola Sarkozi ölkəmizə səfəri çərçivəsində yanvarın 16-da Azərbaycan-Fransız Universitetində (UFAZ) olub. AZƏRTAC xəbər verir ki, Nikola Sarkozi əvvəlcə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan-Fransız Universitetində nümayiş etdirilən sərgiyə baxıb. Sərgidə Azərbaycan tələbələrinin yay məktəbi zamanı Strasburqda çəkdikləri fotolar, eləcə də Azərbaycan Xalq Cümhuriyyətinə dair arxiv sənədləri nümayiş olunur.***

Nikola Sarkozi universitetin tələbələri ilə söhbət edib, bu ali təhsil ocağında fəaliyyət göstərən laboratoriyalarla tanış olub.

Fransanın sabiq Prezidenti tələbələr qarşısındakı çıxışına "Sizin çox güclü və önəmli ölkəniz var" sözləri ilə başlayıb. N.Sarkozi vurğulayıb ki, Xəzər dənizinin sahilində yerləşməsi mükəmməl ölkə olan Azərbaycana daha böyük üstünlüklər gətirir. O, qeyd edib ki, Azərbaycanın gələcəyi sayılan gənclər daim öz üzərlərində işləməlidirlər. Sonda sabiq Prezident Nikola Sarkozi universitetin xatirə kitabına ürək sözlərini yazıb.

# XİN Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Paris görüşünə dair açıqlama yayıb



Xarici İşlər Nazirliyinin mətbuat xidməti Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistan Respublikasının xarici işlər naziri vəzifəsini icra edən Zöhrab Mnatsakanyan arasında ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə yanvarın 16-da Parisdə keçirilmiş görüş ilə bağlı açıqlama yayıb.

AZƏRTAC xəbər verir ki, açıqlamada tərəflər arasında 4 saatdan çox davam edən danışıqlarda daha çox anlayışın və etimadın qurulmasının əhəmiyyəti də daxil olmaqla faydalı və çox müsbət fikir mübadiləsinin aparıldığı bildirilir. Ardıcıl və nəticəyə yönəlik danışıqların qarşıdan gələn ay davam etdirilməsi razılaşdırılıb.

Tərəflər danışıqlar zamanı bir sıra məsələləri, o cümlədən hər iki tərəfin əhalisinin sülhə, təhlükəsizliyə və dayanıqlı regional inkişafa hazırlanması yollarını müzakirə ediblər.

# Struktur islahatları idarəetməni daha çevik edəcək

## *İlham Əliyev: "Biz elə islahatlar aparırıq ki, o, həm makroiqtisadi vəziyyətə, həm iqtisadiyyatın real sektoruna, həm vətəndaşların rifahına, həm də onların rahat yaşamasına xidmət edir"*



***Azərbaycan Prezidenti İlham Əliyevin bu günlərdə imzaladığı "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərman müasir dövrün yeni çağırışlarına uyğun idarəetmə sistemində çevikliyin artırılması baxımdan, mühüm əhəmiyyət daşıyır. Ölkə Prezidenti çıxışlarında da dəfələrlə qeyd edib ki, indi dünyada əks- proses gedir - idarəetmə daha yığcam, çevik, daha məqsədyönlü və az işçi ilə böyük iş görmək halına gətirilir. Heç şübhəsiz, bütövlükdə, dünyada gedən bu proseslərə uyğun olaraq, Azərbaycanda da idarəetmədə dəyişikliyin edilməsi vacibdir. Ekspertlərin sözlərinə görə, Prezident İlham Əliyevin idarəetmə sahəsində atdığı son addımların və bundan sonra da davam ediləcəyini və bu dəyişikliklərin hər birinin əsas məqsədi Azərbaycanda idarəçilik sisteminin təkmilləşməsindən və bu sistemin effektivliyinin artırılmasından ibarət olacağını vurğulayıblar.***

### Azərbaycan - dünyanın ən islahatçı ölkəsi

Son 15 ildə Azərbaycanın keçdiyi uğurlu inkişaf yoluna nəzər yetirmək, kifayətdir. Məhz bu uğurlu nəticələrə görə, Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. Azərbaycanda aparılan islahatlar nəticəsində, ölkədə maliyyə sabitliyi və iqtisadi artım bərpa olunub, bir çox sahələrdə, xüsusilə, kənd təsərrüfatı, qeyri-neft sənayesi və digər sektorlarda əhəmiyyətli irəliləyiş əldə edilib. Dövlətimizin başçısı tərəfindən ölkədə sahibkarlığa dəstək məqsədilə biznes mühitinin bütün sahələri, xüsusilə, biznesə başlama, tikinti üçün icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, maliyyə mənbələrinə çıxış imkanlarının artırılması, vergilərin ödənilməsi, əmlakın qeydiyyatı, xarici ticarətin aparılması üzrə əhəmiyyətli irəliləyiş baş verib. Eyni zamanda, dövlət-biznes tərəfdaşlığında qarşılıqlı inam daha da artıb və bu münasibətlər gələcək iqtisadi inkişafın təməl prinsipinə çevrilib.

Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən islahatlar, öz növbəsində, "Doing Business 2019" hesabatında Azərbaycanın ümumi reytinqdə yeni rekorda imza atmasına, eləcə də, əksər indikatorlar üzrə mövqeyinin daha üst səviyyəyə qalxmasına imkan verib. Belə ki, 2018-ci il oktyabrın 31-də Dünya Bankı tərəfindən yayılan "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək, dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. Yeni hesabatda Azərbaycanın mövqeyi 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək, 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, dünyanın bir çox ölkələrini geridə qoymaqla, Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə yüksəlib. "Doing Business 2019" hesabatında deyilir: "Avropa və Mərkəzi Asiya bölgəsinə daxil olan Azərbaycan ən yaxşı təkmilləşdirmə göstəricilərinə malik 10 ölkə arasında və qlobal səviyyədə rekorda nail olaraq, səkkiz sahə üzrə islahatlar aparmaqla, 2017-2018-ci illərdə biznes fəaliyyətinin daha da asanlaşdırılmasını təmin edib".

Göründüyü kimi, bu uğurlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin alternativsiz olduğunu və aparılan islahatların cəmiyyətin bütün təbəqələrinin, o cümlədən, biznes subyektlərinin mənafelərini əks etdirdiyini bir daha göstərir.

### Vüqar Bayramov: "Struktur islahatları biznes mühitinin daha da yaxşılaşmasına müsbət təsir göstərəcək"

Ekspert Vüqar Bayramov qeyd edib ki, yanvarın 11-də Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında, dövlət başçısının bildirdiyi kimi, idarəetmə sistemində yeni islahatlar mərhələsi başlanıb. Bu isə dərinləşmiş iqtisadi islahatlar fonunda Azərbaycanın 2019-cu ilə yeni struktur islahatları ilə başlamasından xəbər verir.

Azərbaycanda həyata keçirilən islahatların strukturunun təkmilləşdirilməsi və qərarların qəbulunun çevikliyini də özündə ehtiva etdiyini deyən V.Bayramov diqqətə çatdırıb ki, ölkə başçısının mövcud strukturu təkmilləşdirərək yeni dövrün çağırışlarına uyğunlaşdırması nəticəsində, idarəetmə sistemində çeviklik artırılır: "Fərmanın ən böyük üstünlüyü müasir standartlara uyğun idarəetmə strukturlarının yaradılması ilə bağlıdır. Aydındır ki, dərinləşmiş islahatlar yeni struktur islahatlarını daha da aktuallaşdırır. Dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı imzalanan son Fərman da məhz iqtisadi islahatların səmərəliliyinin daha da artırılması üçün baza formalaşdırmaqdadır. 2019-cu ildə həm dövlət başçısının tapşırıq və tövsiyələrinə, həm da Strateji Yol Xəritələrinə uyğun olaraq, islahatların daha da dərinləşdirilməsi nəzərdə tutulur. Dərinləşmiş islahatlar bu il qeyri-neft sektorunun artım tempinə də öz müsbət təsirini göstərəcək. Bu isə, iqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın azaldılması kimi hədəflərə daha tez nail olunmasına şərait yaradacaq".

Ekspert deyib ki, bir sıra dövlət qurumlarının ləğv edilməsi və ya birləşdirilməsi qərarların qəbulu prosedurunu da xeyli sadələşdirəcək: "Bu baxımdan da, yeni struktur islahatları biznes mühitinin daha da yaxşılaşdırılmasına birbaşa müsbət təsir göstərəcək. Son islahat Azərbaycanda həyata keçirilən və birbaşa qeyri-neft sektorunun inkişafına, eləcə də, investisiya mühitinin yaxşılaşdırılmasına, idarəetmə aparatının çevikliyinin artırılmasına, idarəetmədə səmərəliliyin təşkilinə hesablanan islahatların tərkib hissəsidir. Prezidentin imzaladığı Fərmanında məqsəd mövcud postneft dövrünün prioritetlərinə uyğun iqtisadiyyatın şaxələndirilməsinə hədəflənmiş islahatların struktur islahatları ilə dəstəklənməsinə nail olmaqdır. Nəticədə, bu, idarəetmədə bir çeviklik formalaşdırır ki, proseslərə idarəetmə orqanlarının daha çevik, tez bir zamanda səmərəli reaksiya verməsini təmin edir".

**RƏFİQƏ KAMALQIZI**

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində ötən ilin yekunları müzakirə edilib



***Yanvarın 16-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) 2018-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclası keçirilib. Komitədən AZƏRTAC-a bildiriblər ki, iclasda kollegiya üzvləri ilə yanaşı, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov, həmçinin Mərkəzi Aparatın və bölgə şöbələrinin müdirləri iştirak ediblər.***

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasa toxunub. 2018-ci ilin, ümumilikdə, ölkəmiz üçün uğurlu olduğunu, bir çox sahələrdə nailiyyətlərin əldə edildiyini bildirən DQİDK sədri ötən il ərzində ölkədə dini durumla bağlı sabitliyi təmin etmək və qoruyub-saxlamaq, həmçinin tolerant mühitin daha da sağlamlaşdırılması, mənfi təzahürlərin aradan qaldırılması üçün bir sıra əhəmiyyətli addımların atıldığını diqqətə çatdırıb.

Mübariz Qurbanlı bildirib ki, bu ilin dövlətimizin başçısı tərəfindən Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığını, milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyətini nəzərə alaraq "Nəsimi İli" elan olunması Azərbaycanın zəngin tarixi-mədəni irsinin təbliğinə çox böyük töhfədir.

Dövlət Komitəsinin sədri daha sonra 2018-ci il ərzində respublikada dini durumu dərindən öyrənmək, dini prosesləri izləmək, əsas tendensiyaları müəyyənləşdirmək, radikal dini cərəyanların fəaliyyətinin qarşısını almaq, ölkədəki dini vəziyyətlə bağlı informasiya fondunu genişləndirmək, dini qurumlarla əməkdaşlığın qurulmasını təmin etmək məqsədilə həyata keçirilən müvafiq tədbirlər barədə ətraflı məlumat verib.

Dövlət Komitəsinin sədri 2018-ci ildə dövlət qeydiyyatına alınan dini icmaların ümumi sayının 909-a çatdığını, onlardan 877-nin İslam, 21-i xristian, 8-i yəhudi, 2-si bəhai və 1-i krişna şüuru olmaqla 32-nin isə qeyri-islam təmayüllü olduğunu vurğulayıb. Hesabat dövründə dini qurumların dövlət qeydiyyatına alınması ilə bağlı 143 müraciətin (138-i İslam, 5-i qeyri-islam təmayüllü) daxil olduğu, 22 dini qurumun sənədlərinin qanunvericiliyə uyğun tərtib edilmədiyinə görə geri qaytarıldığı, ümumilikdə, 98 dini icmanın (96-sı İslam, 2-si qeyri-islam təmayüllü) dövlət qeydiyyatına alındığı diqqətə çatdırılıb.

O, hesabat dövrü ərzində keçirilən bəzi maarifləndirici tədbirlərin formatına uyğun olaraq, Dövlət Komitəsinin sifarişi ilə hazırlanmış "Fitnə", "Şəhadət", "Üfüqdəki gələcək" və "Vəhdət qanımızdadır" adlı sənədli filmlərin ölkənin bütün regionlarında, o cümlədən ölkəmizdəki ali təhsil müəssisələrində, orta məktəblərdə, gənclər evlərində və s. müvafiq məkanlarda nümayiş etdirildiyini vurğulayıb.

Daha sonra Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadənin məruzəsi dinlənilib.

Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev çıxışında bildirib ki, hesabat dövründə təmsil etdiyi Agentlik və onun tabeliyindəki Mənəvi Dəyərlər Fondu dövlət-din münasibətlərinin tənzimlənməsi və bundan irəli gələn vəzifələrin təkmilləşdirilməsi, radikal dini cərəyanlara qarşı müvafiq tədbirlərin görülməsi, cəmiyyətdə milli-mənəvi dəyərlərin təbliği istiqamətində fəaliyyətini davam etdirib.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Ceyhun Məmmədov isə İnstitutun 2018-ci ildə təhsil standartlarının müəyyənləşdirilməsi, strukturunun təşkili, tələbə qəbulu, ilk tədris ilinə hazırlıq, eləcə də maarifləndirmə istiqamətində apardığı ardıcıl və məqsədyönlü işlər barədə məlumat verib.

Daha sonra Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov Fond tərəfindən mənəvi dəyərlərin qorunması, inkişafı və təbliğini həyata keçirmək məqsədilə reallaşdırılan tədbirlər barədə danışıb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov çıxış edərək bildirib ki, Azərbaycanda din sahəsində stabil mühit mövcuddur, ölkəmiz konfessiyalar və məzhəblərarası münasibətlərin tənzimlənməsi baxımından nümunəvidir. O qeyd edib ki, dövlətimizin başçısı İlham Əliyev tərəfindən dini icmalara göstərilən qayğı, onların fəaliyyəti üçün daim geniş imkanların yaradılması dövlətin milli-mənəvi dəyərlərə olan yüksək münasibətinin bariz nümunəsidir.

E. Nəcəfov ölkədə dini durumla bağlı sabitliyin qorunub-saxlanılması və dini icmalar arasında mövcud tolerantlıq mühitinə kölgə salmağa çalışan mənfi təzahürlərin aradan qaldırılması istiqamətində Dövlət Komitəsi tərəfindən görülən işləri, xüsusilə respublikanı əhatə edən genişmiqyaslı maarifləndirmə tədbirlərini yüksək qiymətləndirib və bu tədbirlərin ölkədəki dövlət-din münasibətlərinin daha da təkmilləşməsinə öz töhfəsini verdiyini bildirib. O, ötən ildən başlayaraq təmsil etdiyi şöbənin respublikanın bütün bölgələrində etno-siyasi və dini durumla bağlı keçirdiyi zona müşavirələrinin dini radikalizmə qarşı mübarizə işinə öz müsbət təsirini göstərdiyini bildirib.

Sonda Dövlət Komitəsinin 2019-cu il üçün fəaliyyət planı, qarşıya qoyulan məqsədlər, görüləcək işlər, problem və perspektivlər geniş müzakirə edilib.

# Sergey Lavrov: 2018-ci il Rusiya-Azərbaycan münasibətləri üçün çox müsbət il olub

***2018-ci il Rusiya-Azərbaycan münasibətləri üçün çox müsbət il olub. AZƏRTAC xəbər verir ki, bunu 2018-ci ilin yekunlarına həsr olunmuş böyük mətbuat konfransında Rusiyanın xarici işlər naziri Sergey Lavrov bəyan edib.***



O deyib: "Azərbaycanla münasibətlərə gəlincə, mən "sıçrayış" terminindən istifadə etmək istəməzdim, çünki bizdə münasibətlər sıçrayışlarla deyil, yetərincə sabit və yüksələn xətt üzrə inkişaf edir. Ötən il prezidentlər səviyyəsində növbəti son dərəcə məzmunlu görüşlər keçirilib, həmkarım Elmar Məmmədyarovla da həm Bakıda, həm də Moskvada görüşlər olub, iqtisadi idarələrimiz sıx əməkdaşlıq ediblər, prezidentlər Vladimir Putinin və İlham Əliyevin birgə hamiliyi ilə növbəti də fə Bakı Beynəlxalq Humanitar Forumu keçirilib. Hamısını sadalamaq olmur: bizi bir-birimizə bağlayan formal, rəsmi, qeyri-formal tədbirlər olduqca çoxdur, o cümlədən, yeri gəlmişkən, Rusiyada, eləcə də Azərbaycanda çox populyar olan "JARA" mahnı bayramı. Odur ki, mən ötən ili müsbət, son dərəcə müsbət qiymətləndirirdim. Biz istər MDB strukturlarında, istər BMT-də, istər ATƏT-də, istərsə də Avropa Şurasında yaxşı əməkdaşlıq etmişik. Yeri gəlmişkən, Avropa Şurasında Azərbaycana qarşı da yetərincə qərəzli münasibət var və Avropa Şurasının Parlament Assambleyasında Azərbaycan deputatlarının hüquqlarını məhdudlaşdırmağa çalışırlar.

Ötən il Ermənistanda rəhbərliyin dəyişdiyi il olub. Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə həmsədrlərin fəaliyyətinə töhfəmizə gəlincə, həmin səbəbdən il təkcə tanışlıq xarakteri daşıyan görüşlərlə məhdudlaşıb. Lakin bu ay Rusiya, Fransa və Birləşmiş Ştatlardan olan həmsədrlərin Ermənistan və Azərbaycanın xarici işlər nazirləri ilə növbəti görüşü planlaşdırılır. Düşünürəm ki, bu istiqamətdə də biz artıq köhnəlmiş olan, lakin Yerevanla Bakının xoş məramı, beynəlxalq birliyin, o cümlədən həmsədrlərin dəstəyi ilə həll edilməsi mümkün olan münaqişənin nizamlanmasına kömək edə biləcəyik. Düşünürəm ki, həll yolunun axtarılmasına hazır olması barədə Bakıdan səslənən bəyanat hər cür dəstəyə layiqdir".

Rusiyanın növbəti Rusiya-İran-Azərbaycan sammitini hazırladığını qeyd edən S.Lavrov deyib: "Sizi inandırıram ki, o keçiriləcək. Azərbaycanın iştirakı ilə digər mümkün formatlara gəlincə, hələlik bu barədə danışıqlar praktiki müstəviyə keçməyib. Həmin formatların özündə nə qədər "əlavə dəyər" daşıdığına baxmaq lazımdır, çünki format naminə format - Azərbaycanın, Rusiyanın və digər mümkün iştirakçıların maraqlarına cavab verən format deyil. Lakin qarşılıqlı fəaliyyətimizin bu və ya digər formasının "əlavə dəyəri" olsa, biz belə imkanı məmnuniyyətlə nəzərdən keçirərik".

## 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar Türkiyədə silsilə tədbirlər keçiriləcək




İyirmi Yanvar faciəsinin 29-cu ildönümü ilə əlaqədar Türkiyədə silsilə tədbirlər keçiriləcək. AZƏRTAC xəbər verir ki, Azərbaycanın Türkiyədəki səfirliyi və Ankara Universitetinin birgə təşkilatçılığı ilə "Azərbaycanın müstəqilliyinə gedən yolda 20 Yanvar faciəsi" mövzusunda anım mərasimi təşkil olunacaq. Bundan başqa, İstanbul Universitetində professor Aygün Əttarın məruzəçi olduğu konfrans keçiriləcək. QHT-lər tərəfindən də bir sıra tədbirlər təşkil ediləcək. Həmçinin İstanbuldakı Türkiyə-Azərbaycan Dərnəyində faciənin qurbanlarının xatirəsi anılacaq.

Azərbaycanın İstanbuldakı baş konsulluğu tərəfindən yanvarın 19-da və 20-də İstanbul metrosunun "Yeni qapı" stansiyasında 20 Yanvar faciəsinin dəhşətlərini əks etdirən fotosərgi qurulacaq. Qarsdakı baş konsulluğumuzun təşkilatçılığı ilə Qars və İğdır şəhərlərində bir neçə anım mərasimi keçiriləcək.

# Əli Kərimli tərəfdarlarını bada verəcək

## AXCP sədrinin tələsinə kimlər düşə bilər?

***"Milli Şura"nın növbəti dəfə keçirmək istədiyi aksiyası bir daha sübut edir ki, ümumiyyətlə, bu qurumun rəhbərliyi, xüsusilə AXCP sədri Əli Kərimli və onun dirijor çubuğu ilə idarə edilən Cəmil Həsənli "inqilab" adı altında şəxsi mənfəətlərini güdürlər. Daha dəqiq desək, bu məqsədlə, ətraflarında olan insanları mitinqlərinə cəlb etməklə, bəlli Qərb təşkilatları qarşısında üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirib, onların vəd etdikləri növbəti maliyyə vəsaitlərini əldə etməyə çalışırlar.***

Lakin bəlli olan daha bir məqam budur ki, bunlar öz məqsədlərinə çatmaları üçün özlərini deyil, məhz azsaylı elektoratlarını qurban verməyə hazırlaşırlar. Məsələ ondadır ki, BŞİH "Milli Şura"nın keçirmək istədiyi mitinqinə rəsmi icazəsini verib və bu amilin özü, ilk növbədə ölkədə demokratik mühitin aşkar göstəricisidir. Halbuki, "Milli Şura" yetkililəri sosial şəbəkələrə qapanaraq, hər gün guya ölkədə söz və ifadə azadlığının pozulduğunu iddia edir, bəlli anti-Azərbaycan xarakterli təşkilatlara yarınırlar.

Lakin məsələnin digər tərəfi həm də budur ki, onlar necə deyərlər, ucdantutma hər kəsi "siyasi məhbus" elan edir, hətta ən ağır cinayətlər törətmiş şəxsləri belə, maddi maraqları naminə "siyasi məhbuslar siyahısı" deyilən qondarma, əsassız və saxta donoslarına yapışdırırlar. Eləcə də, gah "aclıq aksiyası", gah da digər "siyasi mübarizə" üsulundan şübhəli şəkildə istifadə edənlərin "mübariz müdafiəçilərinə" çevrilirlər. Halbuki, sağlam düşüncəli rəy belələrinin yalanlarına ümumiyyətlə, inanmır və "Milli Şura"nın mitinqlərinə dəstək vermirlər.



### Video və fotoçəkilişlər də olacaq

Lakin təəssüf ki, elə insanlar da var ki, onlar öz işlərini-güclərini ataraq, Əli-Kərimli-Cəmil Həsənli cütlüyünün siyasi oyunbazlıqlarının qurbanlarına çevrilirlər. Məsələn, bugünlərdə bəlli olub ki, adıçəkilən qurumun mitinqinə qatılacaq şəxslər nəzarət altında olacaqlar. Daha dəqiq desək, aksiyanın keçiriləcəyi ərazidə nəzarət kameraları quraşdırılıb. O cümlədən, video və fotoçəkilişlər də həyata keçiriləcək ki, bu, həm təhlükəsizliyin təmin olunmasına hesablanmış addımdır, həm də çəkiliş materialları aksiyada iştirak edənlərin dəqiq kimlikləri barədə məlumatlara əlavə ediləcək.

Əslində, bu addımdan Ə.Kərimlinin də xəbəri var və buna baxmayaraq, o hər zaman olduğu kimi, bu dəfə də insanları öz maraqlarına qurban verməyə hazırlaşır. Yəni AXCP sədrini və ətrafını "Milli Şura"nın mitinqinə gələcək insanların sayı maraqlandırır, taleləri yox. Çünki insanlar Ə.Kərimlinin yağlı vədlərinə inanaraq və öz işlərini-güclərini ataraq, "Milli Şura"nın siyasi şousuna tamaşa etməyə gedərkən, onlar digər tərəfdən öz işlərini itirmək təhlükəsi ilə qarşı-qarşıya qala bilərlər. Yəni ən aparıcı Avropa dövlətlərində belə, işini atıb, iş saatını fərdi maraqlarına qurban verirlərsə, istər-istəməz cəzalandırılırlar, işdən uzaqlaşdırılırlar və s. Görünür, Ə.Kərimlini belə məsələlər ümumiyyətlə maraqlandırmır və onun üçün kimlərinsə öz çörəyini itirməsi qətiyyən maraqlı deyil. Belə ki, hazırkı dövrə qədər AXCP sədrinin badına onlarla insan qurban gedib, işlərini, təhsillərini, gələcəklərini itiriblər.

### "Milli Şura"nın düşmənçilik maraqlarının əksinə olaraq, Azərbaycanda inkişaf, tərəqqi, islahatlar inqilabı baş verir

Lakin bu məsələnin daha bir tərəfi də ondan ibarətdir ki, guya "inqilab" edəcəklərini zorla ictimai rəyə sırımağa cəhdlər göstərən AXCP-"Milli Şura" cütlüyü hələ də anlamır ki, Azərbaycanda onların düşmənçilik maraqlarının əksinə olaraq, inkişaf, tərəqqi, islahatlar inqilabı baş verir və bütün bunlar dövlət rəhbərliyi tərəfindən uğurla reallaşdırılır. Bu gün Azərbaycan dövləti istər siyasi, istər iqtisadi, istər sosial, istərsə də digər sahələrdə yaxın gələcəyə hesablanmış elə nəhəng layihələr həyata keçirir ki, bu addımlar dünyanın ən aparıcı dövlətlərində belə atılmır. Dünyanın bir sıra dövlətləri islahatlara hazır olmadıqlarını açıq-aşkar etiraf etsələr də, Azərbaycan dövləti və rəhbərliyi yürütdüyü möhtəşəm siyasəti ilə qısa zamanda mühüm islahatlarını gerçəkləşdirib və bunu əsaslı şəkildə həyata keçirib, eləcə də keçirməkdədir. Həmçinin, bu gün təhsilində uğurlara imza atan tələblər, işlərində layiqincə çalışan həkimlər, müəllimlər, habelə digər peşə fəaliyyətləri ilə məşğul olan insanları anlayırlar ki, "Milli Şura" kimi lüzumsuz və əhəmiyyətli siyasi qurumların yalanlarına inanmaqdansa, dövlətin inkişafına töhfə verməık daha dəqiq, düzgün qərardır.

Beləliklə, fakt budur ki, "Milli Şura"nın mitinqlərindən şəxsi mənfəətlərini güdən Ə.Kərimli, C.Həsənli, G.Hacıbəyli və başqaları növbəti dəfə həmin mənfəətlərinə sadə, siyasi bilgiləri olmayan insanları qurban verməyə, onları tələyə salmağa çalışırlar. Fəqət, unudurlar ki, bir gün buna görə də cavab verməli olacaqlar. Özü də, ilk olaraq, maddi və s. iştahalarına qurban verdikləri şəxslərin, onların ailələri qarşısında!

**Rövşən NURƏDDİNOĞLU**

**P.S.** Yeri gəlmişkən, hələ bir müddət öncə, daha dəqiq desək, bir neçə il qabaq AXCP sədri Əli Kərimli, onun tələsinə düşərək, ali təhsilləri yarımçıq qalmış, həbsə düşmüş və həyatları zəhərlənmiş gənclərin ailələrini aşkar saxtakarlıqla ziyarət edərək, onlara 100 AZN pul verib və onlarla fotolar çəkdirərək, sosial şəbəkələrdə yaymışdı. Amma sonradan bəlli olduğu kimi, Kərimlinin "ziyarəti" ənənəvi xarakter almamışdı. Məlum olmuşdu ki, o, növbəti qrantlarını bank maxinasiyası vasitəsi ilə əldə etdikdən sonra sadəcə, gözdən pərdə asmışdı. İndi sual oluna bilər ki, bəs ay Ə.Kərimli, nəyə görə sən o ailələri bir daha ziyarət etmədin, elə beş-altısına gedib, hərəsinə 100 manat pul verib, beləliklə də aradan çıxdın. Əcəba, "Milli Şura"nın budəfəki izləmə kameralı, çəkilişli mitinqindən sonra yenədəmi bənzər üsulla baş aldadıb, aradan çıxacaqsan?

# Azərbaycandan İrana qanunsuz keçmək istəyən sərhəd pozucusu saxlanılıb



Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) sərhəd təhlükəsizliyinin təmin olunması sahəsində əməliyyat-axtarış və sərhəd mühafizə tədbirlərini qətiyyətlə davam etdirir.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, yanvarın 16-da dövlət sərhədinin pozulmasının qarşısı Xidmət əməkdaşlarının sayıqlığı və peşəkarlığı sayəsində alınıb. Belə ki, saat 02:25 radələrində DSX Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində Beyləqan rayonunun Əmirzeyidli kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində Azərbaycan Respublikasından İran İslam Respublikası istiqamətində naməlum şəxsin ayaq izləri aşkarlanıb. Sərhəd zastavasının və qonşu bölmələrin şəxsi heyəti tərəfindən sərhəd pozucusunun mümkün hərəkət istiqamətləri qapadılıb və ərazidə təxirəsalınmaz axtarış tədbirləri həyata keçirilib. Hadisə ilə əlaqədar birgə tədbirlərin görülməsi məqsədilə İran İslam Respublikasının Aslanduz sahəsi üzrə sərhəd nümayəndəsi dərhal məlumatlandırılıb. İranın sərhəd mühafizə orqanları tərəfindən həmin istiqamətdə sərhəd mühafizə tədbirləri gücləndirilib.

Görülmüş tədbirlər nəticəsində saat 03:20-də sərhəd pozucusu aşkarlanıb. O, təqib zamanı xəbərdarlıq atəşindən istifadə edildikdən sonra tutulub. Araşdırma zamanı sərhəd pozucusunun şəxsiyyəti dəqiqləşdirilib və onun Beyləqan rayonu 2-ci Şahsevən kənd sakini 1984-cü il təvəllüdlü Muradov Rahil Məsim oğlu olduğu müəyyənləşib. Həmin ərazinin yoxlanılması nəticəsində AKM-74 markalı silah, bir patron darağı, 7,62 millimetrlik 19 patron və sərhəd pozucusunun digər əşyaları aşkarlanaraq götürülüb. Hadisə ilə bağlı zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Ərdoğan-Putin görüşünün detalları açıqlandı



Türkiyə və Rusiya Suriyanın şimalında 32 kilometrlik buffer zonasının yaradılmasını müzakirə edir. SİA xarici KİV-ə istinadən xəbər verir ki, görüş yanvarın 23-də baş tutacaq. Tərəflər həmçinin, Suriyada keçid hökumətinin formalaşması üçün də fəaliyyət keçəcək. "Avropa Fransada insan haqlarının pozulmasına niyə reaksiya vermir?"

# Ermənistanda sosial etirazlar şiddətlənir!



Ermənistanda sığorta agentləri və vergi ödəyiciləri etiraz edirlər. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, aksiya iştirakçıları hökumət binasının qarşısında toplaşıblar. Onlar yaxın zamanlarda icbari sığortanın dəyərinin bahalaşacağını bildirir və sığorta ödəmələrinin həcminin azlığından şikayət edirlər. Vergi ödəyiciləri isə qeyd edirlər ki, hökumətə etirazları qalmayıb. Onlardan toplanan verginin əksəriyyəti korrupsiyaya qurşanmış rəsmilər və məmurlar tərəfindən mənimsənilir. Üstəlik vergi qanunları vergi ödəyicisi olan iş adamlarına eyni dərəcədə tətbiq olunmur. Etirazçılardan biri deyir ki, məsələ ilə bağlı Nikol Paşinyana 50-yə yaxın məktub yazıb, lakin onların heç birinə cavab ala bilməyib. Narazı kütlə Ermənistan hakimiyyətinin bütün müəssisələr üçün vergi ilə bağlı eyni şərait yaradılması barədə dəfələrlə səsləndirdiyi vədə daha ciddi yanaşmadığını da bildirir. Bu problemin artıq ciddi xarakter aldığını qeyd edən aksiya iştirakçıları etirazları davam etdirməyə qərar veriblər.

"Ermənistanda inqilabdan sonra məlumat yenidən bölüşdürülməsi baş tutmayıb və bu, kütləvi informasiya vasitələrinə də aiddir". Bu sözləri isə Nikol Paşinyan deyib. O bildirib ki, ölkədəki media qurumları ya keçmiş hökumət nümayəndələrinə, ya da hazırkı hökumətə müxalif olanlara məxsusdur. Paşinyan ona qarşı çıxan qüvvələri hədələməkdən də çəkinməyib. Onun sözlərinə görə, keçmiş hakim qüvvələr törətdikləri əməllərə görə cavab verəcəklər. Artıq Ermənistanın keçmiş müdafiə naziri Seyran Ohanyana qarşı ittiham irəli sürülüb. O, 2008-ci il martın 1-2-də ölkədəki konstitusiya quruluşunu devirməkdə və kütləvi iğtişaşlar törətməkdə günahlandırılır. Bu barədə Baş Prokurorluğun ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Harevik Xaçatryan bildirib. Qeyd edib ki, Ohanyanı da Robert Koçaryan kimi həbs gözləyir. İşğalçı ölkə parlamenti isə növbəti iclasında yeni tərkibini formalaşdırıb. "Mənim addımım" blokundan Alen Simonyan və Lena Nazaryan, "Çiçəklənən Ermənistan" partiyasından Vaqe Enfiadcan Milli Şuranın vitse-spikerləri təyin olunublar.

# Müstəqilliyə gedən yolda xalqımızın şərəf və qəhrəmanlıq salnaməsi

***Azərbaycan xalqının tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar faciəsi XX əsrdə xalqımıza qarşı yeridilən düşünülmüş siyasətin növbəti təzahürü idi. Artıq 20 Yanvar hadisələrindən 29 il keçir. Keçmiş Sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi hərbi təcavüz insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi tariximizdə yer alıb. Sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli tarixdir. İmperiyanın Bakıda qanlı hadisəni törətməklə, İttifaqa üzv olan digər respublikalara gözdağı vermək planı və imperiyanı zor gücünə mühafizə etmək təşəbbüsü də boşa çıxmış oldu.***




1990-cı ilin yanvar ayında, M.Qorbaçov başda olmaqla, Sovet imperiyasının rəhbərliyi Bakıda vəziyyətin öz məcrasından çıxdığını və hakimiyyətin təhlükədə olduğunu bəhanə edərək, qoşunun yeridilməsi üçün müxtəlif dezinformasiyalar yayırdı. Guya Bakıya qoşun hərbi qulluqçuların ailələrini qorumaq, hakimiyyətin zorakılıqla ələ keçirilməsinin qarşısını almaq üçün yeridilmişdi. Əslində isə, bu, tamamilə saxta bir tezis idi. 1990-cı il yanvarın 19-da M.Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq, yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Lakin əhalinin bundan məlumatsız qalması üçün SSRİ DTK-nın "Alfa" qrupu tərəfindən yanvarın 19-da saat 19.27-də Azərbaycan Televiziyasının enerji bloku partladıldı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və dinc əhaliyə amansız divan tutuldu.

Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt isə öldürülənlərin sayı 100 nəfərə çatmışdı. Belə ki, artıq yanvarın 20-də 131 insan öldürülmüşdü ki, onlardan 117-si azərbaycanlı, 6-sı rus, 3-ü yəhudi, 3-ü tatar idi. 744 adam ağır xəsarət almış, 4 şəxs itkin düşmüş, 400 nəfər isə həbs edilmişdi. Sovet qoşunları fövqəladə vəziyyət elan olunmayan rayonlara - yanvarın 25-də Neftçalaya, bir gün sonra isə Lənkərana yeridilmiş, nəticədə, hər iki rayonda dinc insanlar qətlə yetirilmişlər. Beləliklə, Sovet qoşunlarının Bakıya və Azərbaycanın digər rayonlarına hərbi müdaxiləsi nəticəsində öldürülən insanların sayı, rəsmi olaraq, 147-yə çatmışdı. Adamları xüsusi qəddarlıqla və yaxın məsafədən güllələmişlər. Xəstəxanalar, təcili yardım maşınları atəşə tutulmuş, həkimlər öldürülmüşdür.

Yanvarın 20-də artıq bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu. Artıq Sovet qoşunlarının Bakıya hərbi müdaxiləsi dünyanın bir sıra ölkələrində etirazla qarşılanmışdır. M.Qorbaçovun atdığı bu addımı kəskin tənqid etmişlər.

Faciədən bir neçə il sonra, yəni 1994-cü ilin yanvarında bu qanlı cinayətin başında duran SSRİ müdafiə naziri marşal Yazov DFVK işi üzrə prosesdə ifadə verərkən bildirmişdi: "1990-cı il yanvarın 19-da Qorbaçov məni, Bakatini və Kryuçkovu yanına çağırıb Bakıda fövqəladə vəziyyət tətbiq etmək əmrini verdi. Mən heç bir yazılı qərar, heç bir fərman görməmişəm".

20 Yanvar faciəsi Azərbaycan tarixində qanla yazılmış bir səhifə olsa da, bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Xalq o günlərdə böyük bir həqiqəti - həqiqi liderin meydanda olmamasını da bütün mahiyyəti ilə dərk etdi. O müdhiş gündə Ulu Öndər Heydər Əliyev xalqının səsinə hər kəsdən əvvəl səs verdi. Ümummilli Lider Moskvada xüsusi nəzarət altında olaola, özünün və ailə üzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq, hadisələrdən dərhal sonra, 1990-cı il yanvarın 21-də ailəsi ilə birlikdə ölkəmizin Moskvadakı Daimi Nümayəndəliyinə gəldi, təcavüzə kəskin etirazını bildirdi, faciəni törədənləri, şəxsən M.S.Qorbaçovu kəskin ittiham etdi, qoşunların Bakıdan çıxarılmasını tələb etdi. Ulu Öndər Heydər Əliyev bununla, hər şeydən əvvəl, Vətən, xalq qarşısında vətəndaşlıq və milli mövqeyini nümayiş etdirdi. Ümummilli Lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bundan sonra, 1990-cı ilin qanlı Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1994-cü il 5 yanvar tarixli Fərmanında deyilir: "Xalqımızın tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı ilin yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir". Fərmanda Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymətin verilməsi, bu məqsədlə parlamentin xüsusi sessiyasının keçirilməsi məsələsinə baxılması tövsiyə edilirdi. Milli Məclisdə müzakirələrin yekunu olaraq, 1994-cü il martın 29-da qəbul edilən qərarda, nəhayət ki, 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi.

Ulu Öndər şəhidlərin ailələrini dövlət qayğısı ilə əhatə etdi. Eləcə də, 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin sosial müdafiəsi, pensiya təminatı ilə bağlı tədbirlər görüldü. 1993-cü ildən üzübəri 20 Yanvar şəhidlərinin ailə üzvləri və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər görülüb və bu gün də görülməkdədir. Azərbaycan Prezidentinin 17 yanvar 2000-ci il tarixli Fərmanı ilə 20 Yanvar təcavüzü zamanı yüksək vətəndaşlıq nümunəsi göstərərək, həlak olmuş Azərbaycan Respublikası vətəndaşlarına "20 Yanvar şəhidi" fəxri adı verilib, "1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olmuş şəxslərə dövlət qayğısının artırılması haqqında" 2003-cü il 15 yanvar tarixli Sərəncama əsasən, əlil olmuş şəxslərə verilən aylıq müavinət artırılıb və bu iş indi də, davamlı olaraq, həyata keçirilir. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinin dövlət səviyyəsində həllini mühüm vəzifələrdən biri kimi qarşıya qoyub. Ölkəmizdə bu istiqamətində böyük tədbirlər həyata keçirilir. Şəhid ailələrinin, əlillərin sosial təminatı ildənilə daha da möhkəmləndirilir. Ölkənin iqtisadi durumunun yüksəlməsi özünü bu qəbildən olan insanların həyat və məişətində daha qabarıq göstərir.

Dövlət başçısının Şəhidlər Xiyabanı kompleksinin yenidən qurulması ilə bağlı Sərəncamı Vətən şəhidlərinin xatirəsinə ehtiramın daha bir nümunəsinə çevrildi. Prezident İlham Əliyevin Sərəncamına əsasən, Şəhidlər Xiyabanı vahid kompleks kimi yüksək səviyyədə yenidən quruldu və abadlaşdırıldı. Son illərdə ölkədə əlil və şəhid ailələrinin mənzil təminatını yaxşılaşdırmaq üçün dövlət hesabına fərdi və yaşayış evləri inşa olunur. Müvafiq olaraq, 20 Yanvar şəhidlərinin ailələrinə və əlillərə də verilir. 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində daha bir addım metronun "20 Yanvar" stansiyasının üzərindəki dairədə xatirə kompleksinin yaradılması oldu.

Bu gün xalqımız 20 Yanvar hadisələrinin 29-ci ildönümünü qeyd edir, igid övladlarının fədakarlığını məhəbbətlə xatırlayır və onların əziz xatirəsini böyük ehtiramla yad edir. Ölkəmizin hər yerində, eləcə də, xarici dövlətlərdə tədbirlər keçirilir. 20 Yanvar gününün Azərbaycanın suverenliyi, istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizə rəmzi kimi qeyd olunur.







***Nəzakət ƏLƏDDİNQIZI***

# Ermənistan qaz tələsində

## *Ermənistan kimi səfalət içində olan dövlətin xırda bazarına görə İran Rusiya ilə münasibətləri korlamaz*

Baş nazir Nikol Paşinyan hələ də təbii qazla bağlı vədlər verir və bunun haraya qədər davam edəcəyini özü də bilmir. Rusiya qazının qiymətinin bahalaşması qorxusu işğalçı dövləti elə silkələyib ki, alternativ yollar axtarışına çıxmaq məcburiyyəti yaranıb. İndi də İran qazının idxalı ilə bağlı müzakirələr dövriyyəyə buraxılıb ki, bu da yeni hakimiyyətin Ermənistanda kütlənin, müvəqqəti də olsa, sakitləşdirilməsinə xidmət edən hiyləgər siyasətidir. "İran qazının idxalı məsələsi müzakirə olunub və həmişə müzakirə olunacaq, çünki konkret və əlverişli həll tapılmayıb" deyən Paşinyanın, əslində, bu mövzunu daha da uzatmaq niyyətində olduğu açıq-aşkar bəlli olur. Maraqlıdır, "həmişə müzakirə olunacaq" dedikdə, nə nəzərdə tutulur? Müzakirələrin sonsuza qədər davam etməsi mümkün deyil və tərəflər ya razılığa gəlməlidirlər, ya da əksinə.

### Ermənilərin qaza görə İrana üz tutmaq məcburiyyətində və möhtac qaldıqları günün reallığıdır

Təbii ki, baş nazirin dediyi kimi, əlverişli həll tapılmayıb və heç tapılacağına da ümidləri yoxdur. Əks halda, ermənilərə çox optimist vədlər verilərdi. Nəzərə almaq lazımdır ki, yenicə hakimiyyəti zəbt etmiş küçə nümayişçisi üçün bu, çox vacib bir məqamdır və o, bundan məharətlə istifadə etməkdə çox maraqlıdır. İşğalçı dövlətin baş naziri özü də yaxşı bilir ki, qazla bağlı niyyəti utopiya olaraq qalır və bu mövzunun müzakirəsinin uzadılmasından başqa, çarəsi olmadığını hamıdan yaxşı özü dərk edir.

İrandan tədarük edilən qazın həcminin artırılması yalnız Ermənistanın Rusiya ilə razılaşa bilməyəcəyi hal üçün, alternativ olaraq, nəzərdə tutulur. Əslində, hadisələrin gedişi Ermənistanı belə bir addıma sövq edir. Çünki Paşinyan özü də etiraf edir ki, Rusiya qazının sərhəddə Ermənistan üçün dəyərinin yüksəlməsi səbəbindən, rəsmi İrəvan qaz qiyməti probleminin uzunmüddətli həllini aramaq üçün Rusiya tərəfi ilə danışıqları sürdürəcək. Amma Rusiyanın qaza görə Ermənistana güzəştə gedəcəyi, daha aşağı qiymət irəli sürəcəyi ehtimalı azdır. Deməli, ermənilərin qaza görə İrana üz tutmaq məcburiyyətində və möhtac qaldıqları günün reallığıdır.



Məlumdur ki, Rusiya qazı sərhəddə 15 dollar bahalaşıb. Daha dəqiq desək, Rusiya qazının qiyməti indi 165 dollar civarındadır. Həmin bu bahalaşmanın və nəticədə, qiyməti nəzərə alsaq, görürük ki, Rusiya qazının qiyməti İran qazının dəyəri ilə bərabərləşib. Yəni hər ikisi də eyni dəyər həddindədir. Belə olan halda, yəni qiymət fərqi olmadığı təqdirdə, Ermənistan İrandan qaz tədarükünə nəyə görə maraqlı ola bilər? Daha doğrusu, ermənilər İran qazını nəyə görə alternativ variant kimi görürlər və nəyə ümid edirlər?

Ermənilər düşünürlər ki, İran tərəfi cari ildə, yəni 2019-cu ildə qaz tariflərinə yenidən baxacaq. Daha doğrusu, İranın qaz tariflərini aşağı salacağına ümid edirlər. İşğalçı dövlət neft ixracatçısı olan İranın neft bazarındakı qiymət dəyişkənliyi ilə, daha dəqiq desək, ucuzlaşma ilə əlaqədar qazın qiymətlərini aşağı salacağını güman edir. Güman edir ki, son altı ayda neft bazarında baş verən ucuzlaşma, neftin qiymətinin 85 dollardan 55 dollara düşməsi səbəbindən İran tərəfi qazın qiymətini ucuzlaşdıracaq.

### İranı Rusiya ilə münasibətlər daha çox maraqlandırır, nəinki Ermənistan və bu münasibətlərə xələl gəlməsinə razılaşmaq fikrində ola bilməz

Məsələ burasındadır ki, Ermənistan tərəfi bu gümanında əməllibaşlı yanılır və buna ümid etməkdə özü-özünü aldadır. Dəqiq desək, Paşinyan həm yerli əhalini, beləliklə, həm də özünü aldadır. Çünki İran geopolitik nöqteyi-nəzərdən tamamilə başqa bir mövqe sərgiləməkdə maraqlıdır. Əvvəla, ona görə ki, İran və Rusiya Suriya məsələsində ümumi hərbi-siyasi alyansdadır və demək olar ki, eyni sanksiya klubunun üzvüdür. Hətta energetika sektorunda olduqca böyük layihələrin gerçəkləşdirilməsinə də başlayıblar. Söhbət İran-Azərbaycan-Rusiya energetika dəhlizindən, eyni zamanda, Rusiyanın İranda yeni "Buşer-2" atom-elektrik stansiyasını inşa etməsindən gedir və bütün bunların fonunda İranın Ermənistana güzəşt edəcəyi heç ağlasığan deyil.

Bir sözlə, İran səfalət içində olan dövlətin xırda bazarında Rusiya təbii qazı ilə rəqabətə girmək niyyətində ola bilməz. Əks halda, bununla Rusiya ilə hazırda bütün yönlərdə çevik inkişaf edən münasibətlərinə xələl gətirəcəyini göz önünə almalıdır. Deməli, Ermənistan kimi səfalət içində olan dövlətin xırda bazarına görə İranın Rusiya ilə münasibətləri korlamağa hazır olduğu inandırıcı görünmür. Bunu Rusiya tərəfi də, İran tərəfi də çox yaxşı başa düşür və indi Ermənistanın sıxışdırılmış bir durumda olduğunun fərqindədirlər. Sözsüz ki, işğalçı dövlətin bu durumu özləri üçün heç də arzuolunan deyil və ermənilər də onun fərqindədirlər ki, təbii qaza görə onlar çox çətin duruma, bir növ tələyə düşüblər. Daha dəqiq desək, indi Ermənistan qaz tələsindədir.

**İnam HACIYEV**

## Rusiya Azərbaycan və İranla üçtərəfli zirvə toplantısını hazırlayır



Rusiya Azərbaycan və İranla üçtərəfli zirvə toplantısına hazırlaşır. SİA-nın "TASS" agentliyinə istinadən verdiyi xəbərə görə, bu barədə Rusiya XİN başçısının rəhbəri Sergey Lavrov 2018-ci ilin yekunlarına həsr olunan mətbuat konfransında açıqlayıb.

"Üçtərəfli zirvə toplantısı etmək üçün bizim növbəmizdir. Hazırda toplantı ilə bağlı hazırlıq işləri aparılır. Əmin edirəm ki bu sammit baş tutacaq",- deyə Lavrov qeyd edib.

## Leyla İmanova: "Nəsimi ili" çərçivəsində Mərkəzi Elmi Kitabxana tərəfindən fəaliyyət planı hazırlanıb



Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanası Prezident İlham Əliyevin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" və "Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında" müvafiq sərəncamlarının icrası ilə bağlı cari il üçün fəaliyyət planı hazırlayıb. Fəaliyyət planında MEK-in fondlarında Nəsimiyə aid mühafizə olunan sənədlərin təftişi, sənədlərin sistemli axtarışı və mübadiləyə uyğunlaşdırılmış formatda elektron kataloqa, rəqəmsal bazaya daxil edilməsi, "Nəsimi" adlı e-bazanın yaradılması əsas yeri tutur.

Bunu AZƏRTAC-a açıqlamasında MEK-in direktoru Leyla İmanova deyib. O bildirib ki, bu mənbələr barədə media vasitəsilə, o cümlədən MEK-in rəsmi www.mek.az saytında, sosial şəbəkələrdəki səhifələrində paylaşımlar edilməklə ictimaiyyətə müntəzəm məlumatların verilməsi nəzərdə tutulub. Bundan başqa, kitabxana sərbəst ensiklopedik resurslarda - müxtəlif dillərdə olan "Vikipediya"larda Nəsiminin həyatı və yaradıcılığı ilə bağlı məqalələrin yaradılmasını, mövcud olan məqalələrin əsaslı şəkildə redaktə edilməsini, 2019-cu ilin dekabrına qədər MEK-in sərgi salonunda sərginin təşkilini, "Bir kitabın izi ilə" formatında elektron təqdimatın hazırlanması və nümayişini, "Milli Rəqəmsal Yaddaşda Nəsimi irsi" mövzusunda müsabiqə keçirilməsini də hədəfləyib. Bütün bu fəaliyyətlərin icrasının AMEA-nın müəssisələri və mövzuya aid başqa qurumlarla əlaqələndirilmiş şəkildə həyata keçirilməsi nəzərdə tutulur.

## Ötən il pensiya, müavinət və təqaüdlərdə artım tempi davam edib




Prezident İlham Əliyevin əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xüsusi qayğısı, dövlət başçısı tərəfindən bu məqsədlə imzalanan Fərman və Sərəncamlar nəticəsində 2018-ci ildə də sosial təminat sisteminin bütün istiqamətləri üzrə ödənişlərdə artım tempi davam edib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, ötən il əmək pensiyalarının orta aylıq məbləğində 6,8 faiz, o cümlədən yaşa görə əmək pensiyalarının məbləğində 7,3 faiz artım qeydə alınıb. Sosial müavinətlərin və Azərbaycan Respublikası Prezidentinin təqaüdlərinin məbləği isə 10 faiz artıb. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin Azərbaycanın Milli Qəhrəmanları üçün təqaüdünün məbləği 15 faiz artırılaraq 1500 manata çatdırılıb. Həmin istiqamətlər üzrə ayrılan vəsaitlərdə də artım özünü göstərib: 2018-ci ildə əmək pensiyaları üzrə ödənişlərə əvvəlki illə müqayisədə 234,7 milyon manat çox olmaqla 3 523,2 milyon manat, sosial müavinət və təqaüdlərə isə 58,2 milyon manat çox olmaqla 428,8 milyon manat vəsait xərclənib.

## "Azərbaycan iqtisadiyyatı güclü olan ölkəyə çevrilir"

"Dövlət başçısının rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən qeyri-neft sektorun diversifikasiyası siyasəti geniş vüsət alıb". Bunu SİA-ya açıqlamasında millət vəkili Azər Badamov deyib. Deputatın sözlərinə görə, son illər yeni sənaye parkları, sənaye zonaları və sənaye məhəllələrinin yaradılma prosesi sürətlənib: "2018-ci ilin sosial-iqtisadi göstəricilərində qeyri-neft sənayesində ən çox artım qeyri-neft sənayesində olub və bu 9,1% göstəricisi ilə qeydə alınıb. Yeni sənaye müəssisələrinin açılışları isə cari ildə bu göstəricini daha yüksəldəcək, daxili tələbatını tam təmin etməklə ixrac potensialımızı artıracaq və ölkəmizin makroiqtisadi sabitliyinin qarantı olacaqdır.

Bu gün cənab Prezdent İlham Əliyevin Sumqayıtda açılışını etdiyi Karbamid zavodu kənd təsərrüfatında istifadə olunan azot gübrələrə olan tələbatı tam ödəyəcək, ixracın çeşidini genişləndirəcək, ölkəyə ildə əlavə 80 milyon dollar valyuta gətirəcək, 500 daimi iş yeri təmin olunacaq. Polimer, propilen və karbamid zavodlarına 2,8 milyard dollar sərmayə qoyulub və bu zavodların işə düşməsi Azərbaycanın sürətlə sənayeləşməyə getdiyini göstərir. Ulu Öndər demişdi ki, "İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir". Bu gün Azərbaycan sözün əsil mənasında iqtisadiyyatı güclü olan ölkəyə çevrilir".

səs
www.sesqazeti.az
facebook Ses Media Holding
17 yanvar 2019-cu il

# Ermənilər Qazaxıstanda yeni etnik münaqişə ocağı yaratmaq niyyətindədirlər

*Karaqanda şəhərində törədilmiş qətl və baş verən hadisələr 1988-ci il Sumqayıt hadisələrini xatırladır*



***Məlum olduğu kimi, yeni il gecəsi Qazaxıstanın Karaqanda şəhərində ermənilərdən ibarət mütəşəkkil dəstənin qazax millətinə mənsub olan 23 yaşlı bir gənci -Raxımjan Janseyti etnik zəmində öldürməsi, daha 3 nəfərə isə xəsarət yetirməsi bir daha göstərir ki, ermənilər öz tarixi "ənənələrindən" əl çəkmək niyyətində deyillər. Yəni ermənilərin düşüncəsində başqa millətlərə münasibətdə olan nifrət bu gün də özünü bu və ya digər formada göstərməkdədir. Qazaxıstanda həmin hadisənin təşviş və həyəcanla qarşılanması, yerli sakinlərin ayağa qalxmaları, erməni icmasının nümayəndələrinin ölkədən çıxarılmasını tələb etmələri təbiidir.***

Ekspertlərin fikrincə, Qazaxıstanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatındakı mövqeyi, daha doğrusu, bu quruma erməni baş katibin ikinci müddətə seçilməsini dəstəkləməməsi burada yaşayan erməniləri qıcıqlandırıb. Bu mənada, onların yeni münaqişə ocağı yaratmaqla bu ölkədən intiqam almaq fikrinə düşdükləri istisna olunmur. Yeri gəlmişkən, qeyd edək ki, erməni kriminal qrupun postsovet ölkələrində və Avropada törətdiyi cinayətlər haqqında mətbuatda, mütəmadi olaraq, məlumat verilir. Qazaxıstanda da erməni kriminal qruplaşmaların olduğu sirr deyil.

Ekspertlər isə geniş bir coğrafiyanı əhatə edən bu kimi cinayətlərin arxasında Qriqoryan kilsəsindən və ideoloji mərkəzlərdən körüklənən saxta "böyük Ermənistan" xülyasının, yəni insanları doğma yerlərindən didərgin salaraq, onların torpaqlarına sahib çıxmaq niyyətlərinin dayandığını vurğulayırlar.

Əlbəttə ki, hər dəfə olduğu kimi, ermənilər bu dəfə də sudan quru çıxmağa çalışırlar. Erməni mətbuatında bu qətlin məişət zəminində törədildiyini, qazaxların bu məsələni böyütməkdə ittiham edilməsini, hətta qazaxların milli dəyərlərini tənqid edərək, cinayətə haqq qazandırma təşəbbüslərini görə bilərik. Üstəlik, ermənilər qazaxları millətçilikdə ittiham edirlər. Belə ki, ermənilərə məxsus bir çox internet səhifələri Sovet dövründə Qazaxıstanın birinci katibi olmuş Levon Mirzoyanın adını daşıyan küçənin adının dəyişdirilməsi məsələsinə toxunur. Bu, həmin Mirzoyandır ki, on minlərlə qazaxın sürgün edilməsinə, güllələnməsinə imza atıb. Amma ermənilər Mirzoyanın qazaxlara mədəniyyət, elm bəxş etdiyini, "vəhşi köçərilərin" isə, buna dəyər vermədiklərini qeyd edirlər. Erməni politoloqlar çox vaxt hədlərini aşaraq, türk xalqlarını "ikinci növ insanlar" da adlandırırlar. Halbuki Karaqanda hadisələrinə diqqətlə nəzər yetirsək görərik ki, burada açıq şəkildə özlərini dünyaya "məzlum" qismində təqdim edən bu vəhşilərin barmağı var. Ermənistan mətbuatı isə bu kimi şərhlərlə etirazlara səbəb olan hadisəni gizlətməyə çalışır, heç nə olmamış görüntüsü yaratmağa çalışırlar. Başqa sözlə desək, ermənilər Sumqayıt hadisələrində olduğu kimi, Karaqanda hadisəsini də manipulyasiya edərək ictimai rəydə yanlış fikir formalaşdırmağa çalışırlar. Hətta erməni mətbuatında hadisəni əslində azərbaycanlıların törətdikləri barədə yazılara da rast gəlinir.

Hətta bütün bunlar azmış kimi ermənilər Qazaxıstanda ikinci Eduard Qriqoryan yaratmaq istəyirlər, halbuki o, Sumqayıtda kütləvi iğtişaşı ilk başladan, 6 erməninі öldürən, amma çox az cəza ilə canını qurtaran cəlladdır. Erməni mətbuatı Karaqandada baş verən hadisələrlə Sumqayıt hadisələri arasında çox uğursuz şəkildə paralellik aparmağa çalışır. Sumqayıt hadisəsində ilk qətl edilənlər azərbaycanlılar olublar. Karaqanda hadisəsində də qətlə yetirilən qazax gəncidir. Öldürən erməni, ölən azərbaycanlı və qazax olsa da, ermənilər bunu milli qırğının başlanğıcı kimi qələmə verirlər. Həmin hadisə ilə bağlı cinayət işi başlanıb: Kair Nadirbekov, Torqom Malsaxyan və Soxak Malsaxyan həbs edilib, Narek Quruyan isə axtarışa verilib. Son məlumata görə, Qazaxıstan Daxili İşlər Nazirliyinin məsul əməkdaşı onun Rusiyaya, yaxud Ermənistana sığındığını bildirib.

Məsələni daha dərindən analiz edəndə, erməni kriminal qruplaşmanın sakit durmayacağı qənaətinə gəlmək mümkündür. Baş verən olayda rəsmi İrəvanın dəst-xətti də aydın göründüyündən, demək olar ki, ermənilər Qazaxıstanda yeni etnik münaqişə ocağı yaratmaq niyyətindədirlər.

***"Səs" Analitik Qrupu***

# Paşinyanın baş nazirliyi başına bəla açır



*Zarui Postancyan: "O, hakimiyyətə, məhz diktator rejiminin, minimum olaraq, 2020-ci ilə qədər saxlanması üçün gəlib"*

***Nikol Paşinyanın ikinci dəfə Ermənistanın baş naziri seçilməsi ölkənin ictimai-siyasi həyatında birmənalı qarşılanmır. Belə ki, müxtəlif fikirlərlə çıxış edən erməni siyasətçiləri, eləcə də, siyasi müstəvidə yazan KİV-lər erməni baş nazirinin uğursuzluqlarını aşkarlayaraq, cəmiyyətə təqdim edirlər.***

"Diktatorun qanunvericilik bazası Paşinyanın çox xoşuna gəlib". Bu fikirləri Ermənistanın "news.am" saytına erməni siyasətçi, keçmiş deputat Zarui Postancyan deyib. Onun sözlərinə görə, Nikol Paşinyan hakimiyyətə, məhz bu məqsədlə gəlib: "O, hakimiyyətə, məhz diktator rejiminin minimum olaraq, 2020-ci ilə qədər saxlanması üçün gəlib. Ona görə də, yaxın 6 ayda parlamentin gündəliyində nə konstitusiyanın dəyişdirilməsi məsələsi, nə də seçki kodeksinin islahatları olmayacaq".

### "Nazirliklərin ləğvi böyük fəsadlara və təhlükələrə yol açacaq"

Z.Postancyan hökumətin gözlənilən struktur islahatları barədə də fikirlərini bildirib və qeyd edib ki, dövlət idarəçiliyinin mühüm nazirliklərin ixtisarı ilə optimallaşdırılması özünü doğrultmayıb. "Nazirliklərin ləğvi daha böyük təhlükələrə və fəsadlara yol açacaq", deyə qeyd edən erməni siyasətçi, xüsusilə, diaspora nazirliyinin ləğvi məsələsinə toxunaraq, bildirib ki, 9 milyonluq diasporaya malik olan, sərhədlərdən kənar yaşayan ermənilərlə keyfiyyətli iş qurub, onları Ermənistanın quruculuğuna cəlb etmək nazirlik olmadan mümkün deyil.

O, kənd təsərrüfatı nazirliyinin də ixtisara salınmasına münasibətini bildirərək, deyib ki, əgər ölkənin böyük kəsiminin kənd təsərrüfatı sferası ilə məşğul olması nəzərə alınarsa, bu istiqamətdə fəaliyyət göstərən xüsusi dövlət orqanı, yəni kənd təsərrüfatı nazirliyi olmadan hansısa işlərin görüləcəyi anlaşılmazdır.

### "1in.am" saytı: "Zaman Nikol Paşinyana və onun kabinetinə qarşı işləyir"

Bu arada, Ermənistanın "1in.am" saytı da Nikol Paşinyan hökumətinin parlament fəaliyyətinin ilk günündən uğursuzluqları məsələsinə toxunub. "Parlamentin ilk iclası da göstərdi ki, inqilabçıların bloku heç də kompakt deyil", deyə yazan erməni media qurumu əlavə edib ki, belə bir vəziyyət hələ parlament seçkilərinə qədər də açıq-aşkar proqnozlaşdırılırdı. "Paşinyanın kadr siyasəti "Axilles dabanı"na dönüb", deyə qeyd olunur. Həmçinin, bildirilir ki, Nikol Paşinyan ötən aylarda heç bir keyfiyyətli iş qura bilməyib: "Nikol Paşinyana effektli sistem qurmaq müyəssər olmadı, eləcə də, postinqilabçı qüvvələrdə gələcəyi dəqiq görə bilmək qabiliyyəti yoxdur. Parlament seçkiləri hakimiyyətə legitimlik versə də, siyasi keyfiyyət verməyib və ikinci dəfə baş nazir seçilməsindən sonra zaman Nikol Paşinyana və onun kabinetinə qarşı işləyir".

Beləliklə, fakt budur ki, artıq erməni ictimaiyyəti həyəcan təbili çalmağa başlayıb və qarşıda Ermənistanı daha ağır, acınacaqlı, dözülməz və ağır həyat gözləyir. Bütün bunların səbəbkarı daha öncəki hakimiyyət göstərilsə də, artıq bundan sonra baş verənlər, əlbəttə ki, birbaşa Paşinyanın "ayağına" yazılacaq.

***Rövşən NURƏDDİNOĞLU***

# "Paşinyanın konstruktiv mövqeyə gəlməkdən başqa yolu yoxdur"

"Azərbaycanın 2018-ci ildə beynəlxalq siyasətdə əldə etdiyi nailiyyətlər, Azərbaycan Prezidenti İlham Əliyevin 2019-cu ilin münaqişənin həlli istiqamətində dönüş ili olması ilə bağlı səsləndirdiyi fikirlər cari ildə bu istiqamətdə mühüm irəliləyişlərin olacağından xəbər verir". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Rüstəm Məmmədov deyib.



Politoloq söyləyib ki, 2018-ci ildə Azərbaycanın Dağlıq Qarabağla bağlı həqiqətlərinin beynəlxalq aləmdə tanıdılması istiqamətində mühüm uğurlar əldə edilib ki, bunun özü də problemin həllində əhəmiyyətli amil hesab olunmalıdır: "Məsələnin həllinə nail olmaq üçün ilk növbədə onu tanıtmaq mütləqdir. Artıq bütün dünya Azərbaycanı müstəqil siyasət yürüdən, güclü ordu və iqtisadiyyata malik olan ölkə kimi tanıyır. Artıq beynəlxalq ictimaiyyət münaqişənin həllinin uzanmasında əsl günahkarı tanıyır və onları ifşa edir. Bunun özü problemin həllində əhəmiyyət kəsb edən məsələlərdəndir".

R.Məmmədov qeyd edib ki, düşmən ölkəyə təzyiq göstərə biləcək əsas amil Azərbaycanın möhkəmlənməsi, Rusiya və Qərbin rəyidir: "Bu üç amilin olması problemin həlli deməkdir. Paşinyanın Dağlıq Qarabağla bağlı konstruktiv mövqeyə gəlməkdən başqa çıxış yolu yoxdur".

***Nailə Məhərrəmova***

# Ölkə ərazisində kəskin hava şəraiti ilə bağlı tədbirlər görülüb



***Bu gün qış fəslini yaşayırıq. Hər fəslin özünəməxsus xüsusiyyətləri olduğu kimi, qış da qeyri-sabitliyi, xüsusilə, intensiv qar və yağışların yağması ilə səciyyələnir. Qarın yağması, insanlarda sevinc və əhvali-ruhiyyənin yüksəlməsinə səbəb olsa da, özü ilə birlikdə xeyli çətinliklər də gətirir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına istinadən, yanvarın 16-dan 17-nə keçən gecədən başlayaraq, 18-i gündüzədək gözlənilən ifrat təhlükəli hidrometeoroloji hadisə ilə bağlı əhaliyə məlumat verilib. Ötən günlərlə müqayisədə havanın temperaturu 10 dərəcə enəcək. Respublikanın əksər rayonlarında havanın yağıntılı olacağı, sulu qar, qar yağacağı, bəzi yerlərdə intensiv olacağı proqnozlaşdırılır. Şiddətli şimal-qərb küləyinin əsəcəyi, küləyin maksimal sürətinin saniyədə 28-33 metr olacağı, arabir saniyədə 35-38 metrə çatacağı gözlənilir.***

Havanın dəyişməsi ilə əlaqədar bütün təşkilat və qurumlara xəbərdarlıqlar göndərilib. Gözlənilən kəskin hava şəraiti ilə bağlı, hər il olduğu kimi, bu il də ölkəmizdə, eləcə də, paytaxtda qış mövsümünə hazırlıq və abadlıq işləri görülüb.

Qış aylarında havaların kəskin dərəcədə soyuması, qarlı-şaxtalı keçən günlərində, bütün rayonların təsərrüfat xidmətləri xüsusi rejimdə çalışır, hər hansı ciddi hal yaranarsa, onun dərhal aradan qaldırılması məqsədi ilə operativ tədbirlər görülüb. Belə ki, yolların, səkilərin və obyektlərin qarşısının qardan vaxtında təmizlənməsi üçün bu işlərə cavabdeh təşkilatlar müəyyənləşdirilib, şəhər və rayonlardakı kommunal qurumların, digər idarə və təşkilatların sərəncamında olan xüsusi texnikalar saz vəziyyətə gətirilib, kifayət qədər inventar, qum və duz tədarükü görülüb, işçilər arasında xüsusi iş qrafiki təsdiq olunub.

### ETSN-in BÜTÜN QURUMLARI SƏFƏRBƏR EDİLƏRƏK GÜCLƏNDİRİLMİŞ İŞ REJİMİNƏ KEÇİB

Nazirliyin məlumatına əsasən, Xəzər dənizi akvatoriyasında şiddətli küləyin əsəcəyi proqnozlaşdırılıb. Bu barədə əlaqədar təşkilatlara məlumat verilib. Xəzər dənizi akvatoriyasında küləyin maksimal sürətinin saniyədə 30-35 metr olacağı, açıq dənizdə saniyədə 38-40 metrədək güclənəcəyi gözlənilir. Güclü küləklə əlaqədar dalğalar yaranacaq. Dalğanın maksimal hündürlüyünün 6-8 metr və daha çox olma ehtimalı var.

Kəskin hava şəraitinin yanvarın 18-i gündüzədək davam edəcəyi gözlənilir. Artıq bununla bağlı tədbirlər görülüb. Ölkəmiz buna hazır vəziyyətdədir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin aparatında və Milli Hidrometeorologiya Departamentində qərargahlar da yaradılıb. Həmçinin, nazirliyin bütün qurumları səfərbər edilərək, gücləndirilmiş iş rejiminə keçib. ETSN-in aparatında yaradılan qərargahdan dövlət qurumları və nazirliyin regional idarələri arasında koordinasiyanın daha da gücləndirilməsi məqsədilə operativ faktiki hava məlumatları təqdim olunacaq.

Milli Hidrometeorologiya Departamentində yaradılan qərargahdan isə müşahidə olunan proseslə bağlı ətraflı məlumatların (yağıntılar, küləyin sürəti, istiqaməti, dənizdə dalğanın hündürlüyü) hər üç saatdan bir aidiyyəti dövlət orqanlarına ötürülməsi təmin edilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına əsasən, yanvarın 16-dan ölkə ərazisində ifrat təhlükəli hidrometroloji hava proqnozu ilə bağlı işəgötürənlərə müraciət edib. Məlumata əsasən, nazirlik həmin günlərdə ölkə ərazisində açıq hava şəraitində işləməyin təhlükəli olması barədə bütün işəgötürənlərə məlumat verib.

### KƏSKİN HAVA ŞƏRAİTİNDƏ SƏRNİŞİNLƏR MƏNZİL BAŞINA TƏHLÜKƏSİZ ŞƏRAİTDƏ ÇATDIRILACAQ

Sərt hava şəraiti ilə əlaqədar olaraq, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti rəhbərliyinin göstərişinə əsasən də, tədbirlər proqramı hazırlanıb. Departamentlərdə, stansiya, təşkilat və müəssisələrdə, bütün sutkanı əhatə etməklə, məhsul işçilərdən ibarət növbətçilik təşkil edilib. Eyni zamanda, "Fövqəladə Hallar Qatarı" MMC-nin bölmələrində, İnfrastruktur Departamentinin yol, elektrik təchizatı, işarəvermə və rabitə təsərrüfatlarında texnikalar hazırlıq vəziyyətinə gətirilir, stansiyalarda uzunmüddətli dayanmış hərəkət tərkiblərinin özbaşına hərəkətə gəlməməsi üçün onlar etibarlı şəkildə bərkidilir. Kəskin hava şəraitində sərnişinlərin və yüklərin mənzil başına təhlükəsiz şəraitdə çatdırılmasını təmin etmək məqsədilə, maşinistlərin daha sayıq olmaları üçün əlavə təlimlər keçirilib, müvafiq qaydada tapşırıqlar verilib. Əminliklə deyə bilərik ki, vaxtında hazırlıq görüldüyündən, təbiətin istənilən şıltaqlığında yarana biləcək çətinlik aradan qaldırıla bilər.

*Nəzakət ƏLƏDDİNQIZI*

# "Sevgi də bir vətəndir"




***Çağdaş Azərbaycan ədəbi mühitində zamanı düzgün qiymətləndirən, dövrün ruhunu, ahəngini duyan, ədəbi mühitə yeniliklər gətirən qələm sahibləri, cəmiyyətdə cərəyan edən hadisələrə laqeyd qalmayaraq, onları bədii təxəyyülündən keçirərək, oxucuya təqdim edirlər. Dövrün sosial, ictimai, mədəni hadisələrinin ahəngi ədəbi mühitə gətirilir və bədii təfəkkürdən yaranan ideyalar poetikləşdirilir.***

Artıq neçə illərdir ki, qələmi ilə yeni ruhlu şeirlərini oxucularına təqdim edən Azərbaycan Yazıçılar Birliyinin, eləcə də, Jurnalistlər Birliyinin üzvü, Daxili İşlər Nazirliyi mətbuat xidmətinin əməkdaşı, polis mayoru Hafiz Hacxalıl da "Sevgi dolu ürəyim", "Gözləmə nə vaxtsa qayıtmağımı", "Atillaya məktub", "Dərdlərimdən ölən dərdlərim" kimi kitablarında həsrət və sevgidən yoğrulmuş hisslər, qərib bir torpaqdan boylanan insan düşüncələri üstünlük təşkil etdiyindən, onun lirikasında kədər notu üzərində yazılmış nümunələrə daha çox təsadüf olunur. Onu da qeyd edək ki, lirik məzmunlu şeirləri ilə oxucularını könül dünyasına qonaq edən şairin əsərləri tamamilə kədər motivləri üzərində yazılmamış, nikbin ruhlu misralarında könlünün xoş ovqatını da ifadə etmişdir.

Müəllifin çapdan çıxmış "Sevgi də bir vətəndir" kitabı isə, öz vəzifə borcunu yerinə yetirərkən, həlak olan polis serjantları Vüqar Nəsibovun və İsmayıl Tağıyevin əziz xatirəsinə ithaf olunub. Kitabın annotasiyasında, qeyd olunduğu kimi, kitaba vətənə, torpağa, doğulub boya-başa çatdığı, 1988-ci ildənsonuncu deportasiyadan sonra isti qoynundan uzaq düşdüyü ata ocağından, hazırda xidmət etdiyi daxili işlər orqanlarının veteranlarından, Qarabağ uğrunda gedən döyüşlərində yaralanmış, sağlamlığını itirmiş, şəhid olmuş Azərbaycan polisindən bəhs edən oçerklər, esselər, şeirlər daxil edərək, qəlbinin hökmünü, hiss və düşüncələrini ifadə edib.

"Sevgi də bir vətəndir" kitabına daxil edilən "Müdriklik zirvəsində - Müseyib İlyasov", "Çəkdim ki, izim qala...", "Əlvida, cənab general..." "Bu dünyanın Mehmanı...", "Anda əbədi sədaqətlə" kimi nəsr əsərlərində ömrünü öz sevdiyi peşəsinə həsr edən, adını əbədiləşdirən insanların ömür payını bədii bir şəkildə ifadə etməklə, vətən sevgisinin ülviliyini, böyüklüyünü qabarıq şəkildə təqdim edir. Azərbaycanın müxtəlif bölgələrində doğulub boya-başa çatan və şəhidlik zirvəsinə yüksələn insanların ruhu qarşısında mənəvi borcumuzu dərk edərək, onların yad edilməsi və xatirələrdə yaşadılması yolunda görülən işlərin hər biri vətənpərvərlik ruhundan irəli gələn amildir.

Kitaba daxil edilən şeirləri də məzmun baxımından fərqli və rəngarəngdir. "Elə doğulandan ağlar gözlərim", "Ürək ki, var ağrılara yəhərdi...", "Bir dərvişəm dünya mənim" kimi şeirlərində şairin fikir və qəlb dünyasının qonağı oluruq.

H.Hacxalıla həyatının barlı-bəhərli çağında uğurlar diləyir, bitib-tükənməyən söz dünyasının poetik nümunələrini yeni toplularda görməyi arzulayırıq.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Gözlənilən ifrat təhlükəli hidrometeoroloji hadisə ilə əlaqədar tibb müəssisələri tam hazır vəziyyətə gətirilib




Səhiyyə naziri Oqtay Şirəliyev respublika əhəmiyyətli iri tibb müəssisələrinin rəhbərləri ilə şəxsən görüşərək onlara Ekologiya və Təbii Sərvətlər Nazirliyinin hava şəraitinin kəskin dəyişəcəyi ilə bağlı xəbərdarlığını nəzərə alıb, gücləndirilmiş iş rejiminə keçmələri barədə tapşırıqlar verib. Bu barədə AZƏRTAC-a nazirliyin mətbuat xidmətindən bildirilib. Digər tibb müəssisələrinin rəhbərlərinə telefonoqramlar göndərilib. Tibb müəssisələri tam hazır vəziyyətə gətirilib.

# AQTA dabaq xəstəliyi ilə bağlı xəbərdarlıq edib




Başqa ölkələrdən Azərbaycan ərazisinə keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunmaq məqsədilə Qida Təhlükəsizliyi Agentliyi əhaliyə xəbərdarlıq edib. Agentliyin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, xəbərdarlıqda deyilir: "Ümumdünya Heyvan Sağlamlığı Təşkilatı tərəfindən Rusiya Federasiyasının Primorsk vilayətinin Mixaylovski rayonunda dabaq xəstəliyi qeydə alınıb. Bununla əlaqədar olaraq, Rusiya Federasiyasının Primorsk vilayətindən heyvan və heyvan mənşəli məhsulların idxalına müvəqqəti məhdudiyyət qoyulması qərara alınıb".

# Bu institutlarda da fəlsəfə doktoru elmi dərəcəsi almaq mümkün olacaq



Nazirlər Kabineti "Doktoranturalar yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların Siyahısı"nda dəyişiklik edib. SİA xəbər verir ki, sənədi Baş nazir Novruz Məmmədov imzalayıb.

Dəyişikliyə əsasən, Kənd Təsərrüfatı Nazirliyi üzrə Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi üzrə Azərbaycan İlahiyyat İnstitutunda fəlsəfə doktoru elmi dərəcəsi almaq mümkün olacaq.

# Mitinq şousu müxalifətin iflasını dərinləşdirəcək

***Müxalifətdaxili çəkişmələr dərinləşdikcə, partiyalardan istefalar və qopmaların miqyası da artmaqdadır. Çıxış yolu isə yoxdur. Partiya sədrlərinin istefası, onları yenilərinin əvəz etməsi müxalifətdaxili tənəzzülü, qismən də olsa, aradan qaldıra bilər ki, bunu da AXCP-Müsavat liderləri heç vəchlə etmək istəmirlər. Vəziyyət isə getdikcə, daha ağır və kritik xarakter almaqdadır. Hətta "Milli Şura", AXCP, Müsavat yetkililəri bir qədər də dərinə gedərək, siyasi aksiyalar keçirmək kimi anormal addımlar atmağı planlaşdırır. "Səs" qəzetinə açıqlamalarında aksiyaların keçirilməsi qərarının xarici qüvvələr tərəfindən gəldiyini deyən ekspertlər bununla müxalifətin daha faciəvi durumla üzləşməli olacağını bildirdilər.***

### "Paralel" qəzetinin baş redaktoru Tapdıq Abbas: "Müxalifət xarici agent rolunda çıxış edir"



- Özünü müxalifət adlandıran qurumlar, vaxtaşırı olaraq, özlərinin varlıqlarını sübut etmək üçün bu kimi xırda nüanslardan istifadə edirlər. Uzun illərin təcrübəsi də göstərir ki, bu təşkilatlar yalnız öz varlıqlarını ayrı-ayrı aksiyalarla, ayrı-ayrı xırda hadisələrlə varlıqlarını sübut etməyə çalışırlar. Bu gün Azərbaycanda siyasi dustaq yoxdur, məhbus yoxdur. AXCP, "Milli Şura", Müsavat və digər müxalif təşkilatlar mitinqi "siyasi məhbuslara azadlıq" şüarı altında keçirirlər, təbii ki, Azərbaycanda siyasi məhbus yoxdur. Peşəsindən asılı olmayaraq, həbsdə olan şəxslərin hər birinin özünün əməlində cinayət tərkibləri var. Lap deyək ki, jurnalistdirlər. Bunlar peşələrinə görə yox, törətdikləri əmələ görə məsuliyyətə cəlb olunublar. Azərbaycanda bütün məsələlər qanunvericiyin tələblərinə uyğun tənzimlənir. Xaricdən qidalanan müxalif qüvvələr isə qeyri-qanuni vasitələrdən istifadə etməklə, iddialarını və xaricdən aldıqları göstərişləri yerinə yetirmək istəyirlər. İndiyə qədər müxalifətin keçirdiyi mitinqlər uğursuzluqla nəticələnib. Çünki cəmiyyətdə onların heç bir dəstəkləri və sosial bazaları yoxdur. Ümumiyyətlə, mitinq praktikası, artıq müəyyən mənada, tarixin arxivinə gedib. Son illər AXCP-nin, Müsavatın və "Milli Şura"nın keçirdiyi mitinqlərin say tərkibinə baxsaq, uzaqbaşı, 1500 nəfərin iştirak etdiyini görmüşük. Əhali onların təşkil etdikləri aksiyalara gəlmək istəmir. Azərbaycan xalqı öz hakimiyyətini müdafiə edir, Prezident İlham Əliyevin ətrafında sıx birləşib. Artıq 15 illik tarix sübut edir ki, Azərbaycan hakimiyyəti düz yoldadır, xalqın iradəsi ilə hərəkət edir. Bu kimi xarici agent rolunda çıxış edən və özünü müxalifət adlandıran adamlar nə qədər mitinq təşkil etsələr də, elə öz üzvlərindən başqa, o mitinqlərə qatılan olmayacaq. Ona görə də, hesab edirəm ki, yanvarın 19-da keçiriləcək mitinqdə elə bir canlanma, elə bir qeyri-adi ssenari və hadisə baş verməyəcək. Bundan əvvəlki uğursuz mitinqlərin təkrarı olacaq. Bir sözlə, müxalifət tərəfindən keçiriləcək bu mitinqin nəticəsi, artıq bəribaşdan bəllidir ki, heç nə ilə nəticələnməyəcək.

### "Azadlıq Hərəkatçılar Birliyi"nin sədri Təhmasib Novruzov: "Müxaliflər xalqın inamını itirmiş yalançılardır"

- Hər zaman olduğu kimi, bu dəfə də, adları çəkilən şəxslər tərəfindən keçiriləcək mitinq uğursuzluğa düçar olacaq. Həmişə müxalifətin mitinqlərinə ancaq elə öz qohumları, partiya daxilində olan şəxslər qatılıb. Xalq bunların keçirdiyi heç bir mitinqi dəstəkləmir və bu mitinqlərə də getmirlər. Çünki bu qüvvələr xalqın gözündən tamamilə düşüb. Belə olan halda, onlar hansı mitinqlərdən danışırlar. Ümumiyyətlə, müxalifət təmsilçiləri hər fürsətdən yararlanmağa çalışıblar. AXCP və Müsavat funksionerlərinin başlıca məqsədləri xarici maraqlı dairələrin çirkin planlarını reallaşdırmaqla qrant almaqdır. Yəni öz şəxsi mənafeləri üçün hər cür yaramaz əməllərdən istifadə edirlər. Amma nə etmələrindən və nə istəmələrindən asılı olmayaraq, onlar heç nə edə bilməyiblər. Müxalifət düşərgəsində təmsil olunan şəxslər reallığı özündə əks etdirməyən xülyalarla yaşayaraq, ümid edirlər ki, nə vaxtsa onlar da nəyəsə nail ola biləcəklər. Onların bu arzularının həyata keçməsi mümkün deyil. Çünki müxaliflər xalqın inamını itirmiş yalançılardır. Bu baxımdan da, müxalifət düşərgəsini təmsil edən qüvvələr öz fəaliyyətsizliklərini çox gözəl



başa düşürlər. Yəni müxalifət liderləri başa düşürlər ki, uğursuzluğa düçar olublar və onların cəmiyyətdən heç bir dəstəyi yoxdur. Təəccüblü məqam odur ki, həmin liderciklər öz uğursuzluqlarını başa düşsələr belə, yenə bunu büruzə vermək istəmirlər. Bu isə onların faciəsidir.

**GÜLYANƏ**

# Satılan-satan iblislər

## *Özgə yalı ilə yallananlar uluya-uluya qalacaqlar*

***Müxalifət deyəndə, satılan-satan dağıdıcı düşərgənin çaqqalları yada düşür. Bunu biz demirik, elə elmdə də belə adlanırlar - satqınlar. Ömər Xəyyama görə, ''İnsanın ruhu və əxlaqı nə qədər alçaq olarsa, burnunu bir o qədər dik tutar, bu da həyasızlığın göstəricisidir''. Dante ''İlahi komediya'' əsərində satqınları cəhənnəmin ən sonuncu - 9-cu qatında yerləşdirib. Cəhənnəmin lap mərkəzində duran İuda - onların simvoludur.***

Son dövrdə ölkələrdə baş verən səs-küylü hadisələrdən sonra insanı satqınlığa hansı vəziyyətin sövq etməsi psixologiya elmi tərəfindən geniş təhlil edilir. Necə ola bilər ki, ata-ananın, əcdadlarının yaşadığı, ən gözəl xatirələrinin ünvanı olan, ana adlandırdığın vətənə xəyanət edəsən? Əclaflıq adlanan oyun qaydalarını qəbul edəsən? Psixologiya elminə görə, xəyanət - elmi baxımdan daha geniş olan satqınlıq anlayışına daxildir. Xəyanətlərin ən böyüyü - dövlətə xəyanətdir.

"Müxalifət" deyilən məfhum bunu hələ də anlamır və anlaya da bilməz. Bax, bu gün Avropada oturub vətənə, dövlətə, xalqına qarşı şər-böhtan atan erməni qulbeçələri olan Vidadi İsgəndərli, Orduxan



Teymurxan, Həbib Müntəzir, Arzu Qeybulla, Məhəmməd Mirzəli, Tural Sadıqlı, Arif Məmmədov, Qənimət Zahid, Natiq Güləhmədoğlu, Fikrət Hüseynov, Ataxan Əbilov, Arif, Leyla və Ramiz Yunus kimi antimilli satqın zehniyyəti maliyyəpul və qrantlarla təmin olunan şərəfsizlər, satqınların kökü, daha doğrusu, xəmiri belə yoğrulmuşlardır. Satqın üçün hər şey - satılıq maldır. Tarix boyu bu xislətli fərdlər insanlıq adına layiq olmayanlar - şeytanlar, iblislərdir.

### Bənzər xəyanətlər-bənzər sifətlər

Bir də siyasi proseslərdə heç nə təsadüfi olmur. Bu, zaman-zaman deyilmiş və praktiki olaraq, təsdiqini tapmış məsələdir. Bu baxımdan, o da mümkün deyildi ki, heç zaman siyasi-ictimai proseslərdə iştirakçı olmayan, mübarizə meydanlarında görünməyən ünsürlərin mühacir həyatı sürənlərin Azərbaycan dövlətinə qarşı indiyədək rast gəlinməyən iyrənc formada fəaliyyətə başlasın. Özü də o "fəaliyyətə" ki, burada əsas prioritet Azərbaycanın insanına, dəyərlərinə xas olmayan bir tərzdə söyüş, ağır təhqirlər "mübarizə" metodu seçilir və faktiki olaraq, "mənəvi terror" törədilir. Eyni zamanda, bu fəaliyyətdə Azərbaycanın düşmənləri - erməni lobbisi ilə eyni "ələ oynamaq" da açıq-aydın şəkildə prioritetlərdən biridir. E.Hüseynov kimi satqının müdafiəsinə qalxan siyasət rüşeyimlərinin Azərbaycana qarşı sosial şəbəkələrdə böhtan dolu çıxışlar etməsi də təəccüb doğurmur. Onlar hadisələrin məcrasında idarə olunan fiqurlardır. İdarə olunan, isə əsla, idarə edənin məramlarından və niyyətlərindən xəbərdar olmur. "5-ci kolon"u formalaşdırmağa nail olan həmin dairələrin böhtanlarını gerçək kimi qəbul etdirmək mexanizmləri də çox sadədir. Azərbaycanı dünya ictimaiyyətinə "dəhşətli obraz"da təqdim etmək üçün satın alınan Vətən xainləri - V.İsgəndərli, O.Teymurxan, T.Sadıqlı, xarakterinə uyğun psixologiyasını soyadı ilə doğruldan H.Müntəzir, Q.Məmmədov, Q.Zahid kimi ünsürlər də hər zaman olub. Bu kimi Vətən xainlərinin torpağına, elinə, obasına ermənidən betər qənim kəsilən namərdlərin əsl qazancı isə xalqın nifrətidir. Bax, bu marginallar unudurlar ki, anti-Azərbaycan dairələrin qrant paylayan üfunətli ofislərinin mərmər döşəmələri üstündə gəzib özgə yalı ilə yallanmaqla heç nəyə nail ola bilməyəcəklər. Belələri bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır.

**Rəfiqə HÜSEYNOVA**

# "Quş qripi" ilə bağlı monitorinq davam edir

Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidmətinin əməkdaşları seçmə üsulla ovlanmış 16 baş (Pirallahı adasındakı Abşeron Milli Parkından 8 baş, Şabran rayonundakı Ağzıbir ovçuluq təsərrüfatdan 5 baş, Salyan rayonundakı Şirvan Milli Parkından 3 baş) köçəri quşlardan patoloji material, həmçinin Abşeron, Şabran və Salyan rayonlarındakı şəxsi və quşçuluq təsərrüfatlarında saxlanılan 150 baş ev quşundan qan nümunələri götürüb. Nazirliyin ictimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildirilib ki, köçəri quşlar üzrə monitorinq aparılan ərazilərdə xəstə və xəstəlikdən tələf olan quşlara təsadüf edilməyib, eləcə də təsərrüfatlarda saxlanılan quşlar arasında hər hansı iti yoluxucu xəstəliyə rast gəlinməyib.



Həm köçəri, həm də ev quşlarından götürülmüş materiallar Qida Təhlükəsizliyi İnstitutunun Milli İstinad Laboratoriyasında müayinə olunacaq və nəticələr ictimaiyyətə açıqlanacaq. Hazırda "quş qripi" və digər iti yoluxucu xəstəliklərə görə respublikada epizootik vəziyyət sabitdir. Bu sabitliyi qoruyub saxlamaq üçün Dövlət Baytarlıq Xidməti aidiyyəti qurumlarla birgə lazımi tədbirlər həyata keçirir.

***Ermənistanda baş vermiş hakimiyyət dəyişikliyi bir çox deyilməyən və ya göz yumulan mətləblərə aydınlıq gətirdi. İlk öncə, bu ölkənin Rusiya tərəfindən idarə edildiyi ifşa edildi. Kremlin indiyədək ermənilərin istəklərini "atalıq qayğısı" ilə yerinə yetirdiyi bir daha məlum oldu. Ermənistanda indiyədək müstəqil hakimiyyətin olmadığı aşkarlandı. Eyni zamanda, bu ölkəyə rəhbərliyin kənardan, elə keçmiş SSRİ-də olduğu kimi, Moskvanın təyin etdiyi öz təsdiqini tapdı. Bir sözlə, Rusiyanın hər cəhətdən Ermənistanı himayə etdiyi inkaredilməz faktları təsdiqləndi.***



# Nikol Paşinyan - küçə siyasətindən doğan uğursuzluqlar

Rəsmi Yerevan dekabrın 9-da keçirdiyi növbədənkənar parlament seçkilərindən sonra Moskva ilə münasibətlərdə yaranan çatları aradan qaldıracağına ümid edirdi. Ancaq bu ümidlər elə arzu olaraq qalmaqdadır. Sözügedən seçkilərdən sonra Ermənistanla Moskva arasında gərginlik artmaqdadır.















Politoloq Qabil Hüseynli Paşinyanı qarşıda çətin günlərin gözlədiyini deyərək, bildirib ki, Paşinyan 8 ay bundan öncə də, hakimiyyətə gələrkən, erməni əhalisinə çoxlu vədlər vermişdi: "Bu vədlərin içərisində iqtisadi islahatlar, xarici investisiyaların cəlb edilməsi, yeni iş yerləri, əhalinin maddi rifah halının yaxşılaşdırılması idi. Verilmiş sözlərin yerinə yetirilməsinin zamanı çatsa da, hələ də bir irəliləyiş yoxdur. Paşinyanın bundan sonra da bunun öhdəsindən gələcəyi sual altındadır. Nikolun yalnız bir çıxış yolu var, o da Dağlıq Qarabağ probleminin həllidir. Ermənistan bölgədəki inteqrasiya proseslərinə qoşulmaq üçün mütləq işğalçılıqdan imtina etməli və bölgədə normal qonşuluq münasibətlərinin yaranmasına töhfə verməlidir. Hər halda, Ermənistan Gürcüstandan ibrət götürə bilər. Azərbaycan ən böyük iqtisadi layihələrini Tbilisi vasitəsilə həyata keçirir və bu gün Gürcüstan büdcəsinin 42 faizini həmin layihələrdən gələn gəlirlər təşkil edir. Əgər Ermənistan danışıqlar prosesini beynəlxalq hüquq normalarına və BMT qətnamələrinə uyğun surətdə apararsa, o zaman Paşinyan xalqına verdiyi vədləri yerinə yetirmək iqtidarına malik olacaq. Əks-təqdirdə, Ermənistan çox pis vəziyyətdə qalacaq. Hətta belə bir vəziyyətdə Paşinyan idarəetməni də itirə bilər".

Politoloq Arzu Nağıyev bildirib ki, Ermənistanda insanlar Paşinyan hakimiyyətinə o qədər də inanmır və seçkilərin qeyri-şəffaf keçirildiyini bildikləri üçün səsvermədə iştirak etmədilər: "Digər səbəb də Paşinyanın dövlət idarəçiliyində səriştəsizliyi, mitinq siyasəti ilə dövləti idarə etmək istəyidir. Bundan başqa, əsas məqam kimi, Qarabağ klanının neytrallaşdırılması və Bako Saakyan radikal millətçi qruplarla əvəz etmək istəyidir. Paşinyan özünü baş nazir etmək üçün bütün rıçaqlardan istifadə etdi. Qərb və Rusiya arasında oyunbazlıq, KTMT-yə qarşı çıxaraq onun nüfuzuna xələl gətirmək, Xaçaturovun geri çağırılması, Koçaryanın həbsi, Dağlıq Qarabağa səfərlər, Rusiya əleyhinə bəyanatlar, Rusiya şirkətlərinin yoxlanması və böyük yeyinti faktlarının ortaya qoyulması kimi variantlar Paşinyanın əsas kredosu idi".

A.Nağıyev bildirib ki, Kreml, hələlik, təmkin göstərir: "Bilir ki, əsas məsələ Paşinyanın bu qışı keçirmək üçün atacağı addımlarla bağlıdır: "Bu, çox çətin bir məqamdır. Bəzi qubernatorları seçki ərəfəsində dəyişmək də bir siyasi gediş idi. Nəyin bahasına olursa-olsun, yazda seçki keçirməmək Paşinyanın əsas arzusu idi. Paşinyan seçkini "demokratik" adlandırsa da, Respublika Partiyası onlara edilən təzyiqləri ön plana çəkir. Məhz Koçaryanın həbsini də bununla əlaqələndirirlər, baxmayaraq ki, o. bununla gələcəkdə milli qəhrəman obrazı yaratmağa çalışır. Yəni Paşinyanın, doğrudan da, çətin günləri başlayır, bu bütün istiqamətlərdə olacaq, həm də ən çətin problem olan Dağlıq Qarabağ məsələsinin həllində. Bu düyünü açmağa cəhd göstəriləndə, o, hiss edəcək ki, proses bütün regional aktyorların da marağı nəzərə alınmaqla getməlidir, tək tarixi yalanları ortaya atıb, onun əsirinə çevrilməklə, heç nəyə nail olmaq olmaz".

## Rusiya Nikola yerini göstərdi

Nikol Paşinyanın düşünülməmiş addımları Rusiyada özünə qarşı ciddi narazılığın yaranmasına səbəb oldu. Müşahidələr göstərir ki, Paşinyana qeyri-ciddi siyasətçi, sözünü tez-tez dəyişən şəxs kimi baxırlar. Elə növbədənkənar parlament seçkilərindən sonra Rusiya prezidenti Vladimir Putinin Paşinyanı təbrik etməməsi və bunun qarşısında Nikolun Moskvaya səfər etməsi deyilənlərin məntiqi reallığıdır. Nikol Paşinyanın Moskva səfəri göstərdi ki, Rusiya Ermənistanın baş nazirinə qeyri-ciddi siyasi fiqur kimi yanaşır və ona, heç bir halda, etimad göstərmək istəmir. Daha doğrusu, Paşinyandan dost çıxmaz. Bu səbəbdən də, ona hər hansı bir etimad göstərilmədi. Sadəcə, protokol xarakterli görüş oldu və müzakirələr aparıldı.

Göründüyü kimi, bütün bu soyuqluğa səbəb Paşinyanın bu günə kimi sərsəm çıxışları, populist fikirlər səsləndirməsi, siyasətdənkənar və düşüncəsiz ifadələrdən istifadə edərək, bəyanatlar verməsi Ermənistan vətəndaşlarının, eyni zamanda, onunla müttəfiq ölkələrin də diqqətindən yayınmır. Bu adam, sadəcə olaraq, Qərb və Ermənistan lobbisi tərəfindən Ermənistana oyuncaq bir hökumət başçısı təyin olunub. Bütün bu faktlar, onu deməyə əsas verir ki, Ermənistanın yalançı demokratiya oyunları onun özünü böyük dövlətlərin siyasi oyunlar girdabında oyun topu olmağa düçar edəcək və bu, artıq görünməkdədir.

**A.SƏMƏDOVA**

# Mehmanşou davam edir...

## Yaxud Cəmil Həsənli ad saymaqla məşğuldur

***Müxalifət düşərgəsində Mehmanşou davam edir. Belə ki, "Milli Şura"nın təyin elədiyi növbəti mitinqi, əsasən, bloger Mehman Hüseynovun zorla boynuna qoyduqları "aclıq aksiyası"na həsr olunub. "Milli Şura"nın ipli kuklası, yəni AXCP sədri Əli Kərimli tərəfindən idarə edilən Cəmil Həsənli isə, düşüb "facebook" sosial şəbəkəsinin canına və gecə-gündüz ad saymaqla məşğuldur. Filankəs...behmənkəs və daha hər hansısa bir kəs "aclıq" edirlər və bu "aclıq"larını "Mehmana dəstək aksiyası" adı altında keçirirlər və s. Halbuki ictimai rəyə sırımaq məqsədi daşıyan bu cür davranışlar, artıq çoxdan köhnəlib və kimsədə təəccüb-filan yaratmır. Söz yox ki, bu məsələnin arxasında, necə deyərlər, ingilis, fransız, amerikalı, hətta macar (!) barmağının dayanması şübhəsizdir, axı Corc Soros əslən macardır...***



### Mənəviyyatsızlığa, rüsvayçılığa və dəyərlərə önəm verməyənlərdən bütün pislikləri gözləməyə dəyər!

Yəni bunlara elə bir mahnı lazımıymış ki, düşsünlər ortaya, şalvar-tumanlarını başlarına çəkərək, gecə kabarelərinin sərxoş və pulları kəm verilmiş fahişələritək üz-gözlərini cırsınlar, bu vasitə ilə kənardakıların diqqətini özlərinə cəlb etsinlər. Çünki biz dəfələrlə bənzər halların şahidlərinə çevrilmişik. Həmin hal isə, göründüyü kimi, yenidən təkrarlanır.

Məsələ ondadır ki, həmin mitinqə qatılmaq fikrində olanlar çox yəqin, mətbuatda istər M.Hüseynov, istər onun qardaşı Emin Hüseynov və onları dəstəkləyənlər barədə kifayət qədər danılmaz faktlara, sübutlara əsaslanan ictimailəşdirilmiş məlumatları oxuyublar. Misal üçün, oxuyublar ki, M.Hüseynovu istər yerli, istərsə də xarici QHT və s. təşkilatların təmsilçiləri ziyarət ediblər, onun özü isə aclıq aksiyası keçirməbeing (!) etiraf edib.

Yaxud biz bu günlərdə M.Hüseynovun öz cinsindən olan oğlan sevgilisi barədə də məlumatları ictimai rəyin diqqətinə çatdıraraq, belə bir mənəviyyatsızlığın heç bir normal məcraya, çərçivəyə sığmaması, bu cür xəstə təfəkkürə malik fərdlərin cəmiyyətə heç bir səmərə verməmələri, əksinə, gəncliyimizə zərbə vurmaları barədə sənədli-sübutlu yazı ilə çıxış etdik. Ancaq bu reallıqları ya qəsdən, ya da bilərəkdən gözə almayanların yenidən M.Hüseynovun "aclıq aksiyası" ətrafında var-gəl etmələri, belə nəticəyə gəlməyə zəmin yaradır ki, sabah onu dəstəkləyənlər də bənzər mənəviyyatsızlıq addımları ata biləcək qədər alçaq və rəzil ünsürlər toplumunun nümayəndələridirlər. Başda Cəmil Həsənli, Əli Kərimli olmaqla, "NİDA"-çı, yaxud da digər lüzumsuz təşkilat üzvlərinədək!

### Xədicənin doyumsuz mədəsinin bir hücrəsi "aclıq aksiyası"na" aid deyil

Yeri gəlmişkən, o da əbəs deyil ki, qrant qoxusu gələn Mehmanşou sirk tamaşasından Xədicə İsmayıl da bəhrələnməyə başlayıb. Ona görə əbəs deyil ki, elə Xədicənin özü də qeyri-ənənəvi cinsi əlaqələr tərəfdarı olaraq (onun bu cür məsələlərdə pərgar olması barədə videomateriallarin şkalası həddini belə keçmişdi), bu kimi hallardan bəhrəsini dadıb. İndi onun üçün M.Hüseynovun öz həmcinsi ilə sevgili olması faktı maraqlı deyil, onun (və digərləri) üçün maraqlı olan M.Hüseynovun adı altında qrant kisəsini artırmaqdır ki, buna görə də gündüzlər "ac" qalıb, gecələr isə qida əvəzi vitaminlər, yoğurtlar və s. məhsullardan gupuldatsın böyük və doyumsuz mədəsinin bir hücrəsinə...

### Niyə Cəmil, Əli və sairləri "aclıq aksiyası"na qoşulmurlar?

Bu gün hay-haray edən C.Həsənli, Ə.Kərimli və digərləri nəyə görə bu kimi "aclıq aksiyaları"na qoşulmurlar? Ancaq kim ki, desə, "mən sabahdan aksiyaya qoşuluram", onun adı dərhal çəkilərək, "qəhrəman" elan edilirlər. Hətta cəbhədə düşmənlə üz-üzə dayanan, yaralanan, şəhid olan əsgərlərimizdən belə, üstün tutulan belə həmcins sevgisini dəstəkləyən mənəviyyatsızlar!

Bax, reallıq da budur. Reallıq budur ki, atalarımız demişkən, uzunqulaq anqırıb, tayını tapar.

***Rövşən NURƏDDİNOĞLU***

# Ermənistan parlamentində dava düşdü

Ermənistan parlamentində deputatlar arasında dava düşüb. Xəbər verilir ki, "Çiçəklənən Ermənistan" və "İşıqlı Ermənistan" fraksiyasının deputatları arasında mübahisə baş verib. "İşıqlı Ermənistan" fraksiyasının deputatı Arman Babacanyan Ermənistanın xarici siyasətini tənqid edib və səfirlərin səmərəli fəaliyyət aparmadığını bildirib. O, Ukraynadakı erməni səfirin fəaliyyətini nümunə olaraq göstərib.

"Çiçəklənən Ermənistan" fraksiyasının katibi Arman Abovyan Babacanyanı yalan danışmaqda ittiham edib. "Cənab Babacanyan, siz yəqin ki, mənim üç il Ukraynadakı səfirimiz Andranik Manukyanın məsləhətçisi işlədiyimdən xəbərsizsiniz. Sizin səsləndirdiniz tezislər və ittihamlar əsasən Ermənistanın informasiya sahəsinə Azərbaycan tərəfindən ötürülən məlumatlardır. Sizi bu tribunadan Azərbaycanın tezislərini səsləndirməyə nə vadar edir?!", - deyə o bildirib. "İşıqlı Ermənistan" fraksiyasının deputat qrupu isə Abovyana yerlərindən etiraz ediblər, ardınca "Çiçəklənən Ermənistan" fraksiyasının deputat qrupu prosesə müdaxilə edib. Bundan sonra qarşıdurma yaşanıb. Sonda isə spiker Ararat Mirzoyanın müdaxiləsindən sonra deputatlar sakitləşib.



# "Avropa Fransada insan haqlarının pozulmasına niyə reaksiya vermir?"



"Bu gün Avropanın özü belə bumeranqdır. İndiyədək Avropa digər ölkələri insan haqlarının, demokratiyanın pozulması ilə günahlandırırdı. Amma hazırda Avropanın özü başqa ölkələrdən fərqli olaraq insan haqlarının ən kobud şəkildə pozulduğu bir yerdir. Hətta şahidi oluruq ki, onlar adi iqtisadi tələblərlə başlanan məsələlərə nə cür reaksiya verirlər". Bunu SİA-ya açıqlamasında politoloq Məhərrəm Zülfüqarlı deyib.

Politoloqun sözlərinə görə, əgər Avropa qanunları Konstitusiyasına uyğun hakimiyyətə riayət edib insan haqlarını tanıyacaqsa, "sarı jiletli"lərin tələblərinə obyektiv yanaşacaqsa deməli proseslər yatacaq: "Bu olmadıqda isə mütləq hakimiyyət dəyişikliyi olmalıdır. Yəni hansısa ölkədə parlament seçkiləri yenidən keçirilə bilər, eləcə də hansısa ölkədə hakimiyyət rəsmisi istefa verə bilər. Çünki Avropa ölkələrində insan haqlarının pozulmasına reaksiya çox kəskin olub. Bunlar zaman-zaman demokratiyaya öyrəşmiş insanlardır. Ona görə də çox güman ki, Fransada Makron hakimiyyətinin ömrü uzun olmayacaq".

Fransada davam edən aksiyalarla bağlı Azərbaycanın mövqeyinə gəlincə, hesab edirəm ki, ölkəmizə qarşı indiyədək qərbin etdiyi tənqidlərə qarşı bu proseslər Azərbaycan üçün bir imkandır: "Məsələn, bizdə bir jurnalist həbs olunan kimi onlar aləmə car çəkirlər. Hətta Avropa təşkilatları bizə qarşı təzyiqləri artırırlar. Bir sözlə, onlar milçəyi böyüdüb fil edirlər. Halbuki özləri xeyli sayda insanı haqsız yerə həbs ediblər. Bəs o zaman sizin dediyiniz demokratiya harada qaldı? İnsan haqları ilə məşğul olan beynəlxalq qurumlar niyə Fransadakı insan haqlarının pozulmasına reaksiya vermirlər? Hesab edirəm ki, bu məsələlərə aydınlıq gətirilməlidir".



## Müxalifət qüruba doğru

**Rəfiqə**

***Bax, bu yerdə irad tutmağınız yerinə düşər. Hamı bilir ki, müxalifət deyilən nəsə var? Müxalifət düşərgəsi ifadəsi işlədilsə də, bu düşərgə ölü düşərgəsidir. Doğru deyirsiniz, amma bunu anlaya bilirlərmi? Bax, elə bəla da budur ki, 25 illik zaman müddətində düzəlməyən müxalifətin bundan sonra düzəlməsi mümkünsüzdür.***

Amma gəl gör, bunlar bəribaşdan hansı oyunlardan çıxırlar?! İndi də başlayıblar, "Müxalifətin zirvə" toplantısı keçirsinlər və bir "lider" təyin etsinlər. Bu yerdə deyirlər ki, "toyuq" ağlı. Şanslı ağılla "lider" axtarırsınız? Üzə çıxan ağıllınız var ki? Qırılmışların hamısı dəli! Bir tərəfdən, AXCP sədri Əli Kərimli, digər tərəfdən də keçmiş başqan İsa Qəmbər. Bir tərəfdən, Ə.Kərimlinin dirijor çubuğu ilə idarə olunan "Milli Şura" aksiya keçirmək fikrinə düşüb və aksiyasının uğurlu alınmayacağının fərqinə vararaq, oraya söyüş qoymaq vasitəsi ilə meydana insanları cəlb etməyə çalışır, digər tərəfdən də, sabiq başqan İ.Qəmbərin dirijor çubuğu ilə idarə olunan Müsavat partiyası özünü dağa-daşa çırpıb, zorla ictimai rəyə sırınmağa müxtəlif cəhdlər edir. Ancaq bu cəhdlərə baxmayaraq, biri o birinə dəymir, ikisi də heç birinə. Yəni köhnə hamam, köhnə tasdır. Fakt budur ki, hər ikisi qürub çağının son prosesini yaşamaqdadırlar. Artıq nə mitinq, nə piket, nə söyüş, nə alqış, nə də qarğış - heç biri bunların dadına-zadına çatan deyil.

Bəs belə olan halda, siyasətdə qalmağa dəyərmi? Görünür, Tanrının bizə bəxş etdiyi o hissiyyatın nə olduğunu hələ bu günə kimi anlamayıblar. Anlasaydılar, Müsavatla AXCP-nin rəhbərliyi başda olmaqla, düşərgədəki naftalin iyi verən "liderlər" siyasətdə qürub çağının çatdığını qəbul edərdilər.

Fakt budur ki, "liderlər" indiyə kimi həyasızlıq nümayiş etdirməklə, guya xalqın "dərdinə şərik" olduqlarını nümayiş etdirirlər. Bu qədər həyasızlıq olar? Hansı xalqdan danışırlar, bax, bu, müəmmalı qalır. Axı bildiyimiz qədər, xalq onları 2003-cü ildən arxivin zibilliyinə atıb. Onda bunlar nəyi gözləyirlər? Niyə siyasətin bunlarlıq olmadığını "kişi" kimi qəbul edib, siyasi arenanı, üzüsulu olaraq, tərk etməyə cürətləri çatmır? Sözsüz ki, sualın cavabı çox bəsitdir. Ona görə ki, heç vaxt xalqı düşünməyiblər, əksinə, xalqdan öz şəxsi mənfəətləri üçün istifadə edərək, qrantlar, pul-paralar dalınca qaçıblar və bu qaçışla "mühacir biznesi" qururlar, vəsiqə satırlar və s. Amma unudurlar ki, bunun da bir sonu var və bu sona qürub deyirlər. Az qalıb, artıq sizlər qürub çağındasınız.

# Azərbaycan tarixində pol oynamış qadınlar

***Öz ağlı, fəaliyyəti ilə məşhurlaşan Azərbaycan qadınlarından biri də Möminə xatundur. O, II Sultan Toğrulun arvadı idi, onun ölümündən sonra Atabəylər dövlətinin banisi Şəmsəddin Eldənizin arvadı olan Mömınə xatun ərinin və övladları Nəsrəddin Məhəmməd Cahan Pəhləvanın və Müzəffərəddin Osman Cahan Arslanın hökmdarlığı dövründə böyük siyasi rol oynamışdı. Salnaməçi Sədrəddin əl-Hüseyni yazır ki, Mömınə xatun həmişə Şəmsəddin Eldənizi ölkə səyahətlərində müşayiət edirdi, dövlət əhəmiyyətli məsələlərin həllində onun fikri ilə hesablaşırdı. Mömınə xatun xalq arasında da böyük nüfuza malik idi.***

Sultan Toğrulun qızı, Atabəylər dövlətinin son hökmdarı olan Müzəffərəddin Özbəyin arvadı, XIII əsrin əvvəllərində yaşamış Mehrican xatun da görkəmli şəxsiyyət olmuşdur. Onun dövlətin idarə olunması və siyasətlə bağlı məsələlərdə fəal mövqeyi vardı.

Xarəzmşah Cəlaləddin özünün çoxminli ordusu ilə Atabəylər hakimiyyətində yerləşən əraziyə soxulanda, iradəsiz və qeyri-təşəbbüskar, vaxtını kef məclislərində keçirən Atabəy Özbək Gəncəyə, oradan da Naxçıvana qaçır, sonra isə Əlincə qalasında gizlənir. Qorxaq ərindən fərqli olaraq, Mehrican xatun Təbrizi tərk etmir, ətrafındakıları və xalqını başsız qoymur. Onun cəsarəti və mərdliyindən xəbər tutan, iti ağlı, güclü xarakteri haqda eşitmiş Xarəzmşah Cəlaləddin Urmiyada Salmas vilayətinin Xoy şəhərinin hökmdarlığını ona tapşırır. Özü isə, vətənini monqollardan xilas etmək üçün ölkəni tərk edir. Lakin müəyyən vaxt keçdikdən sonra onun sədaqətsiz vəziri Atabəylər nəslini onların malik olduğu torpaqlardan məhrum edərək bu vilayəti Mehrican xatundan almaq fikrinə düşür. Özünəməxsus ağıl və bacarıqla Mehrican xatun xalqını yadelli işğalçılara qarşı mübarizəyə qaldıraraq, düşmənə müqavimət göstərir və Azərbaycan torpaqlarının müstəqilliyini qoruyub-saxlaya bilir. Onun ağlı, dövlət xadiminə xas xüsusiyyətləri, xüsusilə, Təbrizin müdafiəsi zamanı ortaya çıxır. Maraqlıdır ki, Naxçıvan şəhərinin də müdafiəsinə qadın - Cahan Pəhləvanın qızı Cəlaliyyə başçılıq edirdi və işğalçılar biabırçılıqla geri çəkilməli olmuşdular.

Tarixdə iz qoymuş Azərbaycan qadınları haqqında söhbət açarkən, XII əsrdə yaşayıb-yaratmış, mənşəcə Azərbaycan türklərindən olan şair, sufi əxi təriqətinin üzvü Məhsəti Gəncəvinin adını çəkməmək olmaz.

Məhsəti Gəncəvi hər sahədə birincilik qazanmışdır. O, ilk məşhur Azərbaycan şairi, ilk şahmatçı qadın, ilk görkəmli qadın musiqiçimiz və çox ehtimal ki, ilk qadın bəstəkarımızdır. Onun tərcümeyi-halı rəvayətlər və müəmmalar haləsinə bürünüb, şairin həyatı barədə məlum olan faktlarsa, hər halda, həmin dövrün müsəlman cəmiyyətinin anlayışında həddən artıq qeyri-adiliyi ilə fərqlənir. Əlbəttə ki, əgər bu faktlara, sözün həqiqi mənasında, yanaşılarsa. rəvayətlərə əsasən, o, Gəncənin Xərabat məhəlləsində yaşamış, vaxtını qonaqlıqlarda, musiqi və rəqs məclislərində keçirmişdir. Onun şeirlərində mey və eşq tərənnüm olunur.

Məhsəti xanımın tərcümeyi-halında qəti müəyyənləşmiş səhifələr olduqca azdır. Onun yaradıcılığı və həyatı ilə bağlı faktlar Rafael Hüseynovun şairə böyük məhəbbətlə və yüksək peşəkar ustalıqla qələmə aldığı "Məhsəti necə varsa" kitabında toplanmışdır.

Məhsəti Gəncəvi təqribən 1089-cu ildə Gəncə şəhərində doğulmuş və ömrünün sonuna qədər burada yaşamışdır. Onun əsl adı Mənicə idi, Məhsəti adını isə özünə ədəbi təxəllüs kimi götürmüşdü. Həmin təxəllüsün mənşəyi barədə bir neçə rəvayət vardır. Bunlardan birində deyilir ki, guya Sultan Səncərlə söhbətlərindən birində Mənicə öz mühitində hamıdan kiçik və görünməz olduğunu söyləyir. Sultan isə onunla razılaşmayıb deyir ki, "to, meh-həsti" (yəni "sən hamıdan böyüksən"). Və guya "meh-həsti" "məhsəti"yə çevrilib onun təxəllüsü olur. Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" əsərinin "Nəticə" adlanan hissəsində irəli sürülmüş fərziyyəyə görə, "Məhsəti" "mah" və "səti" olmaqla, iki sözdən ibarətdir və "böyük xanım" anlamına gəlir. Nəhayət, başqa bir ehtimala əsasən, bu ad "Mah" və "səti" ("Ay xanım") sözlərindən düzəlib (Nizami Gəncəvinin Məhin banusu ("Xosrov və Şirin") da bunun analoqudur.

Məhsəti yaxşı təhsil almış və əsərlərindən də göründüyü kimi, bir çox şəhər və vilayətlərdə olmuşdur: Rum, Mərv, Bəlx, Nişapur, Herat, Gəncə, Xorasan, İraq, Zuzən, Arran və s. Bir müddət o, böyük Sultan Səncərin sarayında yaşamış, onun qəbullarında və burada keçirilən ədəbi məclislərdə iştirak etmişdir. Deyilənlərə görə, Sultan Səncərin diqqətini onun gözlənilmədən yağan qar haqqında bədahətən söylədiyi bir rübai çəkmişdir: "Göylər sənə gümüşü xalça göndərib ki, atının nalı bulanmasın". Sultan bu rübaini eşitdikdən sonra şairi "Mə-histi" ("Ən böyük") adı ilə mükafatlandırmış və onu öz yaxın əhatəsinə qəbul etmişdi. Məhsəti ömrünün çox hissəsini Gəncədə keçirmiş, Sultan Məhəmmədin və onun oğlu Sultan Mahmudun saray həyatında yaxından iştirak etmişdi.

Böyük şairin həyatı barədə məlumatlar, əsasən əlyazma nüsxələri Azərbaycan Əlyazmalar İnstitutunda, İstanbulda və Londonda saxlanan, XIII əsrə aid edilən "Məhsəti və Əmir Əhməd dastanı"ndan götürülür. Məhsəti mövcud ictimai münasibətlərin tənqidi ilə çıxış edir, dünyada ədalətsizliyin hökm sürdüyü, xalqın isə pis vəziyyətdə yaşamasından, istedadı, bilik və rəşadəti olanların ağır taleyindən yazırdı. Dövrünün digər mütəfəkkirləri kimi, Məhsəti də ehtimal edirdi ki, öyüdnəsihətlə hökmdarları ədalətə, xalqın qayğısına qalmağın vacibliyinə istiqamətləndirmək olar. Məhsətiyə görə, insan öz prinsipləri və arzusuna müvafiq həyat keçirməlidir. O özü həyatı sevən insan idi və humanist, həyatı tərənnüm edən yaradıcılığı, rubailəri ilə bu həyatda gümrah və şən yaşamağa çağırırdı, çünki öləndən sonra yaşamaq mümkün deyil, bu dünyadakı həyat isə çox sürətlə ötüb keçəndir.

Məhsətinin təsəvvüründə insan maddi və mənəvi başlanğıcların sarsılmaz vəhdəti, bədən və ruhun üzvi birliyidir.

Məhsətinin nikbin mövqeyi antropoloji istiqamətli olaraq, öz dövrü üçün sosial əhəmiyyətli idi, çünki rəhbərlik edən qanunlara rəğmən insanları həyatın, varlığın sevincinə, səadətə can atmağa çağırırdı.

Məhsəti poeziyası ruhuna görə xalq poeziyasına əsaslanır. Məhsəti irsindən yalnız 400 rübai və kiçik həcmli bir neçə şeir qalmışdır.

Məhsəti Gəncəvinin timsalında Azərbaycan qadınının poetik səviyyədə qazandığı uğurları bir neçə əsr sonra başqa bir Azərbaycan qadını - Sara Xatunun diplomatik fəaliyyətində izləyirik.

Azərbaycan dövlətçilik tarixinə ilk xanım diplomat kimi daxil olan Sara Xatun adını fəxrlə çəkə biləcəyimiz bir qadındır. Osmanlı mənbələrinin yazdığına görə, onun əsl adı Göhvərşah xatundur. Azərbaycan tarixində tanınmış və tarixdə iz qoyan şəxsiyyətlərdən biridir. Bütün Şərqdə dövrünün yeganə istedadlı diplomat qadını kimi tanınan Sara Xatun böyük ağıl və mətanət, müdriklik və cəsarət sahibi idi.

Sara Xatun Bayandur elində doğulub. Ağqoyunlular dövlətinin siyasətinin sahmana salınmasında görkəmli diplomat və dövlət xadimi Sara Xatunun böyük rolu vardı. Ağqoyunlu hökmdarı Uzun Həsənin anası, demək olar ki, bütün Şərqdə yeganə istedadlı diplomat qadın kimi məşhur olan Sara Xatun hətta Avropa ölkələrində də tanınırdı.

O, bir dövlət xadimi kimi hakim sinfin mənafeyini müdafiə edir, feodal dövlətinin möhkəmləndirilməsinə çalışırdı. Bu məqsədlə feodal pərakəndəliyinə və sülalə üzvlərinin mərkəzi hakimiyyəti ələ keçirmək uğrunda ara müharibələrinə, saray çəkişmələrinə qarşı mübarizə aparırdı. Ağqoyunlu hakimi Cəlaləddin Əli bəyin ölümündən sonra onun oğulları, habelə, Bayandurlar sülaləsinin başqa nümayəndələrinin taxt-tac uğrunda ara müharibələrini sakitləşdirməkdə onun böyük rolu olmuşdur. Bunun nəticəsində, həmin dövrdə kiçik Ağqoyunlu dövləti iki qüvvətli rəqib arasında müstəqilliyini qoruyub-saxlaya bilmişdi. Olduqca ağıllı və tədbirli qadın olan Sara Xatun dövləti idarə işlərinin bütün sahələrində oğluna yaxından kömək edirdi. Ağqoyunlu dövlətinin xarici ölkələrlə diplomatik əlaqələrində Sara Xatunun rolu daha mühüm idi. Uzun Həsən bütün xarici siyasət məsələlərini onunla məsləhətləşir, ən məsul diplomatik danışıqlar üçün onu göndərirdi. O, nəinki xarici ölkələrin ayrı-ayrı diplomatları ilə, həmçinin, Teymuri hökmdarı Əbu Səid, Osmanlı imperatoru II Mehmet kimi dövlət başçıları ilə də diplomatik danışıqlar aparmış, Ağqoyunlu dövlətinin xarici siyasi mənafeyini müvəffəqiyyətlə müdafiə etmişdi. Uzun Həsən, xüsusilə, xarici siyasətlə əlaqədar ən çətin məsələlərin həllini Sara Xatuna etibar edirdi. Teymuri hökmdarı Əbu Səidin Azərbaycana hücum təhlükəsi yarandıqda, sülh danışıqları üçün göndərilən elçilərə də Sara Xatun başçılıq etmişdi. Türkiyə Ağqoyunlu dövlətinin müttəfiqi və Aralıq dənizi sahilində əlverişli strateji məntəqə olan Qaraman əmirliyini aradan qaldırmaq istədikdə, Osmanlı imperatoru II Mehmetlə danışıqlar aparmaq üçün yenə də Sara Xatun göndərilmişdi. Sara Xatunu bir diplomat, həmçinin, dövlət xadimi kimi təkcə Şərqdə deyil, Avropada da tanıyırdılar. Venesiya Respublikasının Senatı onun Ağqoyunlu sarayındakı nüfuzunu nəzərə alaraq, demək olar ki, Azərbaycana göndərilən bütün diplomatlarına ciddi tapşırırdı ki, Sara Xatuna ehtiram göstərsinlər, müxtəlif hədiyyələr versinlər, məqsədlərinə nail olmaq üçün ondan geniş istifadə etsinlər. Venesiyadan Azərbaycana göndərilən, demək olar ki, bütün diplomatik sənədlərdə Sara Xatunun adı çəkilir, ondan bəhs olunur.

**Vahid Ömərov,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Məişət sabunu: həm təmizlik, həm də sağlamlıq vasitəsi



Vaxtilə evdar qadınlar üzərinə 72 faiz yazılmış məişət sabunundan yalnız paltar yumaq üçün istifadə etmirdilər. Yaşlı sakinlər indi də onun müxtəlif sahələrdə tətbiq edildiyini yaxşı xatırlayırlar. Ondan həm təbii müalicə vasitəsi kimi də istifadə olunur. AZƏRTAC mütəxəssislərə istinadən bildirir ki, gur, uzun və sıx saçlara sahib olmaq və yaxud da kəpəkdən xilas olmaq üçün məişət sabunundan təsirli vasitə tapmaq qeyri-mümkündür.

Şampundan istifadə ediləndən sonra saç həmin sabunla yuyulur və 1-2 çay qaşığı üzüm sirkəsi qatılmış su ilə yaxalanması yağlı saçı olanlar üçün düşərlidir. Depilyasiyadan sonra dəridə səpkilərin əmələ gəlməməsi üçün dərhal həmin yerə məişət sabunu sürtülür. Həftədə iki dəfə məişət sabunla yuyunmaq dərinin cavan qalmasına kömək edir və yuyunandan sonra üzə uşaq kremi çəkilir. Həmin sabundan hazırlanmış suya kisə batırıb sürtülməsi buxarda yumşalmış bədəndə məsamələrə dolmuş çirki tamamilə təmizləyir. Soyuqdəymənin ilk əlamətləri hiss edilən kimi azca sabun əridilərək suya qatılır, pambıqdan düzəldilmiş tampona batırılaraq burun dəliklərinə yerləşdirilir. Həmin vasitə ilə həm də göbələk xəstəliklərinin qarşısını tamamilə almaq olur.

Sabuna batırılmış diş fırçası ilə zədələnmiş nahiyə yaxşı təmizlənəndən sonra yod çəkilir. Diş fırçasının məişət sabunu ilə yuyulması və bir qat sabun üzərində qalmaq şərtilə gecədən səhərədək saxlanılması mikrobları məhv edir.

Şişin yatması, eləcə də göyərmiş yerlərin sağalması üçün həmin nahiyəyə gündə iki dəfə sabundan hazırlanmış məhlul sürtülür. Yatmazdan əvvəl irinlənmiş nahiyəyə bərabər rəndələnmiş soğan, məişət sabunu və şəkər tozu qarışdırılıb maz şəklinə salınır, sürtülərək bağlanır. Dabanın çatlamış yerinə 2 litr qaynar suya 1 çay qaşığı soda və 1 xörək qaşığı sürtülmüş məişət sabunu qarışdırılaraq vanna edilir. Dəri günəş işığının təsiri nəticəsində yananda həmin nahiyəyə məişət sabunu sürtülərək quruyanadək saxlanılması dərinin yandığı nahiyəni bərpa edir və uçuqlamağa imkan vermir.

## Hər mətbəxdə olan xərçəngin 7 düşməni!

Təbiət insana sağlam olmaq, xəstəliklərin qarşısını almaq üçün saysız vasitələr bəxş edib. Adi su, meyvələr, tərəvəzlər, ədviyyatlar, otlar bizi bir çox xəstəliklərin inkişafından qoruyur.

Qadınlar çox təəccüblənəcəklər bilsələr ki, hər mətbəxdə güclü xərçəng əleyhinə vasitələr tapmaq mümkündür.

Saglamolun.az sizə bəzi belə vasitələri təqdim edir

**1. Tomat pastası**

Likopin maddəsi sayəsində bu məhsul bizi həm xərçəng, həm də ürək-damar sistemi xəstəliklərdən qoruyur.

**2. Sarıkök**

Son zamanlar dünyada sarıkökla bağlı çoxlu sayda elmi araşdırmalar aparılıb. Bu araşdırmalar sarıkökün çoxsaylı müalicəvi xüsusiyyətlərini aşkar edib. Güclü virus, mikrob və iltihab əleyhinə təsirə malik olan sarıkök həmçinin xərçəng xəstəliklərinin riskini də azaldır.

**3. Qara istiot**

Bu ədviyyatın da güclü iltihab və xərçəng əleyhinə xüsusiyyətləri var. Mütəxəssislər qara istiotu sarıkökla birlikdə istifadə etməyi tövsiyə edirlər. Bu zaman onların orqanizmə olan müsbət təsiri daha da güclənir.

**4. Çay**

Bəli, hər gün içdiyimiz adi çay təribində olan katexinlər sayəsində orqanizmə xərçəng əleyhinə təsir edir.

**5. Mixək**

Bu ədviyyatın tərkibində olan evgenol maddəsi güclü xərçəng əleyhinə təsirə malikdir.

**6. Sarımsaq**

Sarımsağın tərkibində olan kükürd birləşmələrinin bir çox faydalı xüsusiyyətləri var. Bu birləşmələr, o cümlədən, orqanizmə xərçəng əleyhinə təsir edir.

**7. Göyərti**

Antioksidantlarla olduqca zəngin olan tərəvəzlər orqanizmi bir çox xəstəliklərdən və o cümlədən xərçəngdən qoruyur. Qida mütəxəssisləri hər gün təzə göyərti yeməyi tövsiyə edirlər.

**ELAN**

ADPU-nun İbtidai-təhsil fakültəsinin III kurs tələbəsi Dadaşova Gülsarə Rizvan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Azərbaycan Qran-Prisinin sessiyalarının vaxtı açıqlanıb



Formula 1-in yaydığı mətbuat üçün xüsusi açıqlamada 2019-cu il Qran-Pri mövsümünün bütün sessiyalarının başlanma və başa çatma vaxtları elan edilib. 21 mərhələdən ibarət olan çempionat martın 17-də Avstraliyada start götürür və dekabrın 1-də Əbu-Dabidə başa çatır.

Qeyd edək ki, Azərbaycan Qran-Prisi aprelin 26-dan 28-dək Bakıda keçiriləcək. İlk cümə məşqi yerli vaxtla saat 13:00-14:30-da, ikincisi isə 17:00-18:30-da baş tutacaq. Şənbə yürüşünün vaxtı 14:00-15:00, təsnifatı isə 17:00-18:00-da olacaq. Bazar günü yürüşü 16:10-da başlayır və günəşin qürubu ilə - 19:32-də yekunlaşır.

***Elgün Vidadioğlu***

## Messi 400-cü qolu haqqında danışıb



"Barselona" futbol klubunun kapitanı Lionel Messi İspaniya çempionatında növbəti rekordu haqqında danışıb. "El Mundo Deportivo"nun yazdığına görə, futbolçu yanvarın 13-də "Eybar"la matçda 400-cü qola imza atdığına görə qürur duyduğunu bildirib: "Ümidvaram ki, bundan sonra da qol vurmağa davam edəcəyəm. Mən rekord və rəqəmlərə o qədər də diqqət etmirəm. Ona görə də qolları yox, hər gün növbəti oyunlarda qalib gəlmək üçün lazım olan xalları necə əldə edəcəyimizi və titul uğrunda mübarizəni düşünürəm. Komandaya kömək etməyə çalışıram, amma burada yalnız qollar əsas deyil".

Qeyd edək ki, argentinalı 400 qolu 435 matça vurub. İspaniya çempionatları tarixində ən yaxşı bombardirlərin siyahısında ikinci yeri "Real"ın keçmiş hücumçusu Kriştianu Ronaldu tutub (311 qol).

## 12 yaşlı hindistanlı şahmatçı dünyanın ikinci ən gənc qrossmeysteri oldu



Hindistanda keçirilən ənənəvi "Delhi Open" yarışında tarixi nəticə qeydə alınıb. Turnirdə iştirak edən hindistanlı gənc Tamil Nadus D Qukeş yarışın sonuna bir tur qalmış qrossmeyster adını qazanıb. O bu nəticəni 12 yaş 7 ay 17 günlüyündə göstərib. Qukeş bu göstərici ilə dünya şahmat tarixində ikinci ən gənc qrossmeysterdir. Dünyanın ən gənc qrossmeyster adını isə hələ də rusiyalı Sergey Karyakin daşıyır. Karyakin 12 yaş 7 aylığında qrossmeyster adını qazanıb. Üçüncü yerdə isə ötən ilin sonunda 12 yaş 10 ayında qrossmeyster adını qazanmış özbək Cavohir Sindarov qərarlaşıb. Qeyd edək ki, hazırkı dünya çempionu norveçli Maqnus Karlsen qrossmeyster adına 13 yaş 4 ay 27 günlüyündə sahib olub.

## "Çelsi" argentinalı futbolçu üçün 40 milyon avro təklif edib

İngiltərənin "Çelsi" futbol klubu Rusiyanın "Zenit" komandasının 24 yaşlı argentinalı yarımmüdafiəçisi Leandro Paredesə görə 40 milyon avro təklif edib. Daha öncə "Zenit" klubu "Çelsi"nin Parades üçün təklif etdiyi 35 milyon avroluq təklifi rədd edib. Leandro Parades 2017-ci ilin yayında 23 milyon avro qarşılığında "Roma"dan "Zenit"ə transfer olunub. Argentinalı yarımmüdafiəçi cari mövsümdə "Zenit" klubunun heyətində 22 oyuna 4 qol vurub və 5 məhsuldar ötürmə edib.

## "Qalatasaray"da növbəti ayrılıq

Transfer fəaliyyətini davam etdirən "Qalatasaray"da növbəti ayrılıq baş tutub. SİA-nın məlumatına görə, İstanbul klubu müdafiəçisi Tarık Çamdalla yolları ayırıb. "Sarı-qırmızılar" 27 yaşlı futbolçunu 2014-cü ildə "Əskişəhərspor"dan 4,75 milyon avroya transfer etmişdi. Almaniyanın "1860 Münhen" klubunun yetirməsi "Qalatasaray"da 4,5 mövsümə 6,95 milyon avro qazanc əldə edib. Türkiyə millisinin üzvü 42 oyunda qol vurmayıb, qol ötürməsi verməyib və 5 kubok qazanıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**